SƏRİNGÜL SADƏ

Könül körpüsü

III

“Elm və təhsil”
Bakı – 2023

Bu kitabda müəllifin könül dünyasından süzülüb gələn şeirlərlə yanaşı, müəllifə həsr edilmiş şeirlər də öz əksini tapmışdır.

Redaktor: **Elxan MƏMMƏDLİ**
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

Rəyçi: **Əli ŞAMİL**

Kompüterdə yığan: **Validə BƏDƏLOVA**

Dizayner: **Vüsal Sehranoğlu**

SƏRİNGÜL SADƏ.Könül körpüsü.
Bakı, "Elm və təhsil", 2023, 200 səh.

4702000000
N-98-2023 qrifli nəşr

© **SƏRİNGÜL SADƏ**, 2023

ATAM ÖMƏR MÜƏLLİM

Təmiz olub ürəyi,
Halal yeyib çörəyi,
Öyrədib düz deməyi,
Atam Ömər müəllim.

Eldə olub hörmətli,
Elm-savad sərvətli,
Ömür sürüb möhnətli,
Atam Ömər müəllim.

Hər zəhmətə alışıb,
Hər zaman da çalışıb,
Dörd-beş dildə danışıb,
Atam Ömər müəllim.

Bağban olub, bağ salıb,
Adı dillərdə qalıb,
Diriykən rəhmət alıb,
Atam Ömər müəllim.

Gerçəkləşib xəyalı,
Səringülün cəlalı,
Şair, alim balalı,
Atam Ömər müəllim.

MƏN DƏDƏMİN QIZIYAM

Kök-soyumu danmıram,
Düz sözü tərs qanmıram.
Oda düşüb yanmıram,
Mən dədəmin qızıyam.

Mən bağlıyam elimə,
Bağ-bağçama, gülümə,
Yalan gəlməz dilimə,
Mən dədəmin qızıyam!

Günahlara batmaram,
Kimsəyə şər atmaram,
Daldalarda yatmaram,
Mən dədəmin qızıyam.

Bağlıyam söz-sənətə,
Dərin məna-hikmətə,
Vurğunam ar-qeyrətə,
Mən dədəmin qızıyam.

Qurban ollam Vətənə,
Dada-hoya yetənə,
Sadə deyir söz yenə,
Mən dədəmin qızıyam.

DƏDƏM OĞLANLARI

El -obanın dost -yarıdı,
Borçalınln vüqarıdı,
Molla Piri nübarıdı,
Ərdi Dədəm oğlanları!

İladimiz ziyalıdı,
Nəslimizin calalıdı,
İnsanların halalıdı,
Sərdi Dədəm oğlanları!

İgid idi nər Nəbimiz,
Fəxr edirdik onunla biz.
Qoymayıblar çöksün heç diz,
Mərdi Dədəm oğlanları!

Vidadimiz sanki ümman,
Zəkasını bilir cahan.
O, təhsilə veribdi can,
Zərdi Dədəm oğlanları!

Elmar dostu doğru-düzün,
Savadlıdı, çəkmir özün,
Sadə deyir ürək sözün,
Nərdi Dədəm oğlanları!

ATAM BALASI

Həyatım, ayım-ilim,
Ağzımda şirin dilim.
Solmayan qönçə gülüm,
Sənsən, atam balası!

Gözümdə yanar çıraq,
Yerə, həm göyə dayaq,
Səhrada axan bulaq,
Sənsən, atam balası!

Göydə günəşim, ayım,
Yerdə ümmanım-çayım,
Tanrıdan gələn payım,
Sənsən, atam balası.

Zülmətlərin çırası,
Ərənlərin ən xası,
Dadan cənnət xurması,
Sənsən, atam balası!

Hər dərdimin dərmanı,
Ağzımın şirin tamı,
Sadənin tək ilhamı,
Sənsən, atam balası!

ANA

Ey mənim ümidim, arzu-diləyim,
Ey mənim göylərdən enən mələyim.
Ey mənim çəmənim-gülüm-çiçəyim,
Dövlətim-sərvətim, sultanım, ana!

Susuz səhra görsə yağışa dönən,
Hər insan ömründə naxışa dönən.
Sevən könüllərdə baxışa dönən,
Gözümün işığı qəlb-canım, ana!

Yazda gül-çiçək tək açar çöllərdə,
Həzin nəğmə kimi gəzər dillərdə.
Özü yerdə olar, ruhu göylərdə,
Atamdan yadigar qalanım, ana!

Qaranlıq yoluma çıraqlar düzən,
Azca qəmim olsa, uzaqdan sezən.
Mənimçün ömrünü-gününü üzən,
Oduma-közümə yananım, ana!

Səringül Sadəyəm, dünyanı gəzdim,
Alıb ləl-gövhəri sinəmə düzdüm.
Axırda dövlətdən, vardan da bezdim,
Qoy sənin başına dolanım, ana!

ANAM BELƏ SÖYLƏRDİ

Anam belə söylərdi,
O, nəsihət eylərdi.
Gələr evin qonağı,
Təmiz saxla otağı.
Özün təmiz ol, ayıl,
Birdən gələr Əzrayıl.
Çalış, günaha batma,
Heç vaxt aranı qatma.
Arxasıza arxa dur,
Könüllərdə körpü qur.
Açıq ürəyin olsun,
Halal çörəyin olsun.
Bəndəyə hörmət eylə,
Həmişə Rəbbim söylə.
Gözlə ədəb-ərkanı,
Düşün Axır zamanı.
Şər-böhtandan uzaq dur,
Yaxşılıqdan saray qur.
Hər sözü söz eyləmə,
Hər gördüyün söyləmə.
Demə ki, qaynanandı,
Oğul doğan anadı!
Sən fikir ver biş-düşə,
Gülsün üzün həmişə!

NİYƏSİNİ SƏN XƏBƏR AL

Geniş dünyam olubdu dar,
Gəl sən mənim qeydimə qal.
Anam, sənə qurban olum,
Niyəsini sən xəbər al.

Görmürəm dağın selini,
Dərmirəm dağın gülünü,
Öyrən fələyin felini,
Niyəsini sən xəbər al.

Nə tapdımsa, tək yemədim,
İnciyib qəlbə dəymədim,
Sənin, mənimdi demədim,
Niyəsini sən xəbər al.

Mənim qəlbim güldən incə,
Qalan ömrüm teldən incə,
Bəxtim yatır niyə səncə,
Niyəsini sən xəbər al.

Sadə acıdil olmadı,
Bir kəsici əl olmadı.
Bu dünyadan kam almadı,
Niyəsini sən xəbər al.

AĞLAYAQ

Aba*, dünya imtahandı,
Bu fələyin əli qandı.
Ölüm Tanrıdan fərmandı,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

Aba, dərdim dağdan ağır,
Başımıza dolu yağır.
Ağlayanda məni çağır,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

Aba, qürbət can alandı,
Yaşayan-köçən nalandı.
Çəkdiyim sənə əyandı,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

* ***Aba – Borçalıda anaya deyilir.***

NEYLƏYİM

Xanım anam, canım anam,
Ey şöhrətim, şanım anam.
Xəstəhalam, yarımcanam,
Qalmışam çaş-baş, neyləyim?
Qəm mənə qardaş, neyləyim?

Diyar-diyar dolanıram,
Oda-közə qalanıram.
Üzülürəm, talanıram,
Qalmışam çaş-baş, neyləyim?
Qəm mənə qardaş, neyləyim?

Mən Sadəyəm, bu haldayam,
Qürbətdə dərd-məlaldayam.
Yaman sorğu-sualdayam,
Qalmışam çaş-baş, neyləyim?
Qəm mənə qardaş, neyləyim?

ANAMIZ

Laylamızı çalıbdı,
Könlümüzü alıbdı,
Qeydimizə qalıbdı,
Gözəl-göyçək anamız.

Ağlayanda kiridib,
Əldən tutub yeridib,
Qəm-qüssəni əridib,
Huri-mələk anamız.

Zəhmət çəkib neçə il,
Öyrədibdi bizə dil,
Səringülə olub, bil,
Arxa-kömək anamız.

ANAM

Qohum-qardaşa anam,
Bağından barın verər.
Özü dadına baxmaz,
Dərər, nübarın verər.

Paxıllıq nədi bilməz,
Ağlayan görsə gülməz,
Olanına yox deməz,
Ocağın-narın verər.

Can desələr, canını,
Sadə söylər, qanını,
Xoş sevincli anını,
Dövlətin, varın verər.

AY ANA

Yordu məni qürbət ellər,
Qara döndü qara tellər.
Öz sözünü dedi illər,
Oldum əlli yaş, ay ana!

Düşünürəm olanları,
Ölənləri, qalanları.
Doğruları, yalanları,
Boğur məni yaş, ay ana!

Mən Sadəyəm, meh kimiyəm,
Gül üstündə şeh kimiyəm.
Sazın qırıq bir simiyəm,
Doğulaydım daş, ay ana!

XANIM ANA

Yetişibdi doxsan yaşa,
Gördüyü iş gəlir xoşa.
Bir örnəkdi başdan-başa,
Xanım ana, canım ana!

Həmdəm olub ona dağlar,
Neçə şair övladı var.
Kəndə gedir hər yaz-bahar,
Xanım ana, canım ana!

Qonaq-qara-mehmanlıdı,
Hər vaxt bağlı-bostanlıdı.
Kəklikotu, reyhanlıdı,
Xanım ana, canım ana!

Xoş arzulu-diləklidi,
Təmiz açıq ürəklidi.
Hamı bilir çörəklidi,
Xanım ana, canım ana!

Adı dillər əzbəridi,
Sadə onun nökəridi.
Elimizin gövhəridi,
Xanım ana, canım ana!

İNCİTMƏYİN ANALARI

Bir kəlməsi şah fərmanı,
Sığalıdı can dərmanı,
Bəxş eyləyib bizə canı,
İncitməyin anaları!

Hər gün qaralar qanımız,
Vallah, sağ keçməz canımız.
Düşmən olar dörd yanımız,
İncitməyin anaları!

Göydə buludlar çaxnaşar,
Yerdə bulaqlar ağlaşar.
Gecə-gündüzə qarışar,
İncitməyin anaları!

Ömrü qışdı, yaydı-yazdı,
Anam görən ahdı-vaydı.
Bürc-hasardı, bir saraydı,
İncitməyin anaları!

Ah çəkəndə zülmət çökər,
Göz yaşını bulud tökər.
Onsuz Sadə xiffət çəkər,
İncitməyin anaları!

XANIM ANAM

Bizə məhək daşısan,
Anaların başısan,
Üzüklərin qaşısan,
Xanım anam, təvanım,
Mənim adım, ünvanım.

Çoxlu oğul-qızın var,
Hamsı bizə iftixar.
Tale olsun sənə yar,
Xanım anam, təvanım,
Uca dağım, aranım.

İladinin muradı,
Butanın qol-qanadı.
Səringülün ustadı,
Xanım anam, təvanım,
Yerim, yurdum, cahanım.

XANIM ANA

Məni dinlə, Xanım ana,
Mənim şirin canım, ana.
Xalı döşə hər bir yana,
Gözün aydın, balan gəlir.

Daha son qoy ah-zarına,
Qüvvət gəlsin qollarına.
Sənin həyat yollarına
İşıqları salan gəlir.

Şükür eylə Allahına,
Aləmlərin o şahına.
Ümid eylə sabahına,
Hər qeydinə qalan gəlir,
Səndən ilham alan gəlir.

QARDAŞIM

(Qardaşım İladiyə)

Yuxusunda atam alıb muradı,
Belə deyib övliyalar ustadı:
– İladi ver öz oğluna sən adı,
Bilin, başqa bir bəşərdi qardaşım.

Dünya salıb ələyinə ələyib,
Qundağını Tanrım nurdan bələyib.
Ağıl verib, ərənlərdən eyləyib,
Ələ düşməz, ləl-gövhərdi qardaşım!

Ağsaqqallar məclisində bol olub,
Qohumları qucaqlayan qol olub.
Ariflərə körpü olub, yol olub,
Mənliyi var, igid ərdi qardaşım!

Uca dağdı, başında çox qarı var,
Gül-çiçəyi, bağçası var, barı var.
O, şairdi, sözdən dövlət-varı var,
Hikmətlidi, mötəbərdi qardaşım!

Doğrulardan-düzgünlərdən biridi,
O, Sadənin qibləgahı, piridi.
Güvəncidi, and və aman yeridi,
Göydə günəş, ay ülkərdi qardaşım!

BACIM BUTAYA

Qarsın yolları buzdu, qardımı,
Yaman çovğundumu, hər yan tardımı?
Zülfiyyə səsiylə qarı yardımı,
Bir xəbər söyləyin oradan, bacım.

Deyəsən, dağlara ağır gəlib qış,
Borandımı Çıldır, o Sarıqamış?
Qardaş ellərindən, Şenlikdən danış,
Sənə kömək olsun Yaradan, bacım.

Qalın qar əriyə, çaylar tez daşa,
Günləri şadlıqla vurasan başa.
Səringüləm, burdan dosta-sirdaşa,
Salam göndərirəm buradan bacım!

AY MƏNİM BUTA BACIM

Bəxtimiz düşdü iraq,
Səbəbi kimdən soraq.
Bilmirəm hara varaq,
Ay mənim Buta bacım!

Hər zaman dərddən boluq,
Almırıq nəfəs-soluq.
Əzəldən qəmə quluq,
Ay mənim Buta bacım!

Dərdimiz dünya qədər,
Ömrümüz keçdi hədər.
Payımız oldu zəhər,
Ay mənim Buta bacım!

Getməmiş Abbas dərdi,
Yenisi tez göyərdi.
İtirdik Məmməd mərdi,
Ay mənim Buta bacım!

Sadədən budur dilək,
Yaradan olsun kömək.
Biz də bir xoş gün görək,
Ay mənim Buta bacım!

QARDAŞ

(Qardaşım Nəbinin əziz xatirəsinə)

Atamın-anamın əziz balası,
Dərdiylə sinəmi dağlayan qardaş.
Babam Qara Nəbi olub adaşın,
Fışqırıqla karvan saxlayan qardaş!

Söz qoyan görmədim sözünün üstə,
Kim mənlə deyərdin, başında dəstə.
Anan Xanım qəmdən düşübdü xəstə,
Yoxdu yaralarnı bağlayan qardaş!

Şeirin sultanıydın, sözünün xanı,
Yaxşı dosta qurban edərdin canı.
Əzbərdən deyərdin şair Bəhmanı,
Sazın tellərində çağlayan qardaş.

Elmira köç etdi, itirdik bacı,
Çəkir sonam Buta ikiqat acı,
Məmməd gözüm nuru, sən başım tacı,
Çoxdu bizim kimi ağlayan, qardaş!

Səringül Sadəyəm, oyubsan məni,
Gəl gör bir nə günə qoyubsan məni.
Sıxıb bir nar kimi, soyubsan məni,
Sevinc yollarımı bağlayan qardaş,
Dərdiylə sinəmi dağlayan qardaş!

QARDAŞ

(qardaşım Nəbiyə)

Çatladı, ay ellər, səbrimin daşı,
Yandırdı sinəmi gözümün yaşı,
Qardaş itirmişəm qardaşlar başı,
Kimsə verə bilməz, yerini qardaş!

Bağlandı yollarım, cığırım-izim,
Kar oldu qulağım, kor oldu gözüm.
Qaraldı ocağım, kül oldu közüm,
Almadım əlimə, əlini qardaş.

Sadə qardaş deyib, inlər ay Nəbi,
Soldu baxçamızda güllər ay Nəbi.
Lal oldu danışan dillər, ay Nəbi,
Dünyaya verməzdim telini qardaş.

QARDAŞIM
(Rəhmətlik qardaşım Nəbiyə)

Sular kimi bulanmışam,
Çox yerləri dolanmışam.
Həmişə səni anmışam,
Ey dəli-dolu qardaşım.

Eldə bəlli kök-soylusan,
Qəlbi ulduzlu-aylısan,
Qaçaq Nəbi haraylısan,
Uludan ulu qardaşım.

Neyləmişdim bu cahana,
Ünüm çıxıb asimana.
Vay balam,- deyəndə ana,
Könlüm qan olu qardaşım.

İstəklərin dinir sazda,
Can qoymusan uğrumuzda.
Qaldıq boran, qarda-buzda,
İtirdik yolu qardaşım.

Sadə indi üzülübdü,
Göz yaşları süzülübdü.
Qəm qoşunu düzülübdü,
Bağlanıb qolu qardaşım,
Ey dəli-dolu qardaşım.

QARDAŞIM NƏBİ

Qardaşım Nəbi sözünü
Deyərdi mərdi-mərdana.
Qələmi qılınc eyləyib
Çalardı zatın danana.

Tək tanrıydı ümid yeri,
Düzlük idi dərdi-səri.
Lənətlərdi böhtan-şəri,
Dərs verərdi min nadana.

Vurğunuydu sazın-sözün,
Bəzəyiydi könlümüzün .
Şeir yazdı düzün-düzün,
Çəkdi bizi imtahana.

Yarpaq kimi tökülmədi,
Əzilmədi, bükülmədi.
Haqqı dedi, çəkilmədi,
Meydan oxudu cahana.

İstəklisi elin-günün,
Yaraşığı toy-düyünün.
Sirdaşıydı Səringülün
Ünün çıxdı asimana!

AĞLARAM

(Nəbinin vəfatına)

Qəfil tufan qopdu dədəm evində,
Yatdı, oyanmadı Nəbi yerində.
Qəmlərə qərq olduq qəmin selində,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Fələk yerdən-göyə eylədi zülüm,
Yandım, kömür oldu, ağzımda dilim.
Çırpındım, çatmadı bir yana əlim,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Bu nə qismət, nə yazı, nə qədərdi,
Günümüz ah-vaydı, qəmdi-kədərdi,
Biz gördük, görməsin kimsə bu dərdi,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Qılıncdan itiydi sözü Nəbinin,
Bilin, sərraf idi gözü Nəbinin,
Yanardı, sönməzdi közü Nəbinin,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

GÖYLƏRƏ UCALDI HEY AHIM-ÜNÜM

Əsdi acı yellər qəfil üstümə,
Ürəyimin bəndi-bağı üzüldü.
Yeridi üstümə qəmin qoşunu,
Səf-səf olub, cərgələndi düzüldü.

Elmiraya yanar qəbirdə canım,
Məmməd gözüm nuru, dinim-imanım.
Nəbi dərd sirdaşım, könül sultanım,
Yaşa döndü, qanım gözdən süzüldü.

Göylərə ucaldı hey ahım-ünüm,
Bükülübdü göy əskiyə xoş günüm.
Heyim yoxdu haray salıb mən dinim,
Sadə ömrü kələfləndi-çözüldü.

QARDAŞ

(Qardaşım Vidadiyə)

Sən fəxrimsən, vüqarımsan,
Mənim güllü baharımsan.
Çox sevimlim-muradımsan,
Ürəyimin başı, qardaş!

Elə bəlli elm-ürfanın,
Elmlə keçir hər bir anın.
Yenə artsın şöhrət-şanın,
Görəsən yüz yaşı, qardaş!

Saz sevdası vardı səndə,
Sadə deyir, gedək kəndə.
Sən sevirsən o vətəndə,
Hər ağacı, daşı, qardaş!

ELMAR QARDAŞ

Elmlidir, pir oğlandır,
İpək kimi bir oğlandır.
Bizə şöhrət, bizə şandır,
Canım-gözüm Elmar qardaş.

Ərkimizi götürəndi,
Gileymizi ötürəndi.
Bizə əziz, bəy-əfəndi,
Şirin sözüm Elmar qardaş.

Səmimidir, mehribandır,
Bir yerəcə kül salandır.
Hərdən-hərdən saz çalandır,
Sadə üçün bir cahandır,
Odum-közüm Elmar qardaş.

GÜLNARIM

Dərddən qala quran mənəm,
O qalada duran mənəm.
Dərdi dərdə vuran mənəm,
Əziz bacım, a Gülnarım.

Neyləmişdim mən fələyə,
Məni saldı o kələyə.
Ahım çatmır yerə-göyə,
Əziz bacım, a Gülnarım.

Tanrımıza gəl açaq qol,
Lütf eyləsin bizə bol-bol.
Səringülə sən həyan ol,
Əziz bacım, a Gülnarım.

BACIM GÜLNAR

Tanrım versin qoy muradın,
Bir qadındır xanım-xatın.
Ünvanıdır təmiz adın,
Mənim gözəl bacım Gülnar.

Fəxr edirik onunla biz,
Vüqarı dağ, qəlbi dəniz.
Hamı üçün olub əziz,
Mənim gözəl bacım Gülnar.

Aydan arı, sudan duru,
Səringülün o göz nuru.
El-obanın bir qüruru,
Mənim gözəl bacım Gülnar.

TEYMURUM

Koroğlu övladı, Qorqud nəvəsi,
Könül güldürməyə vardı həvəsi.
Eliylə-günüylə alır nəfəsi,
Mənim ciyərparam – aslan Teymurum.

Yar-yoldaş içində var adı-sanı,
Çox sevir vətəni Azərbaycanı,
Uşağı dindirib, gözlər piranı,
Ağırı-yüngülü qanan Teymurum.

Ürəyi yumşaqdı, qəlbi tərtəmiz,
Həmişə onunla fəxr edirik biz,
Qohum qapısına salır cığır-iz,
Eyləyir dərdlərə dərman Teymurum.

Bir igid oğlandı, odur ürəyim,
Mənim ömrüm-günüm arzu-diləyim,
Çətinə düşəndə olur köməyim,
Hər zaman halıma yanan Teymurum.

Bir gözəl oğlu var – İsmayıl adı,
Ayrindən götirsin sevinc-muradı.
Onlar Səringülün qolu-qanadı,
Sənə qurban olsun anan, Teymurum.

SƏNSƏN, AY OĞUL

(oğlum Teymura)

Cahi-calalım,
Dövlətim-malım.
Bəxtim-iqbalım,
Sənsən, ay oğul!

Dinim-imanım,
Canı yananım,
Məni qananım,
Sənsən, ay oğul!

Gecələr yuxum,
Burnumda qoxum,
Azım, həm çoxum,
Sənsən, ay oğul!

Vətən sevənim,
Dada yetənim,
Gülüm-gülşənim,
Sənsən,ay oğul!

Arxam-köməyim,
Arzum-diləyim.
Vuran ürəyim,
Sənsən, ay oğul!

Eldə dayağım,
Yanar çırağım,
Səsim-sorağım,
Sənsən, ay oğul!

Kaman, tar, sazım,
Şirin avazım,
Baharım-yazım,
Sənsən, ay oğul!

Sadənin bağı,
Aranı-dağı,
Qəlbinin sağı,
Sənsən, ay oğul!

TEYMUR BALAM

Gözümün qarasıdı,
Hər sözünün ağasıdı,
Xas igidin balasıdı,
Oğul balam, Teymur balam!

Onunla fəxr edir elim,
O, mənim ağzımda dilim.
Darda qalsam tutur əlim,
Oğul balam, Teymur balam!

Fələk dərdi sıralayıb,
Sadə ömrün paralayıb.
Dərdi məndən paralayıb,
Oğul balam, Teymur balam!

AFAQ QIZIM

Göylərin günəş ayı,
Tanrının gözəl payı.
Mərhəmət, insaf çayı,
Ay mənim Afaq qızım.

Ağıllı, elm-ürfanlı,
Mehriban, qohumcanlı.
Təhsildə adlı-sanlı,
Ay mənim Afaq qızım.

Edirsən xoş diləyi,
Sevirsən gül-çiçəyi.
Səringülün ürəyi,
Ay mənim Afaq qızım.

İSMAYIL

Sən ömrümün yolusan,
Qəlbi nurla dolusan.
Mənim arzu dünyamın
Qanadısan, qolusan.

İsmayılım, pir balam,
Mənim igid, şir balam.
Nənən sənə qurbandı,
Bu deyildir sirr, balam.

Bürcüm, qalam, hasarım,
Bağım, bağçam, nübarım.
Neyləyirəm dünyanı,
Sənsən fəxrim, vüqarım.

Gəl nənəni sevindir,
Ürəyini al, dindir.
Sənin üçün diləyi
Saysızdır, neçə mindir.

Arxasıza arxa dur,
Allah versin sənə sur.
Səringülə sevincdən
Çalış, yeni saray qur!

AYRİN BALAM

Heç vaxt qəmi-kədəri
Duymasın Ayrin balam.
Elin toy-nişanında
Oynasın Ayrin balam.

Yığsın dağdan gül-çiçək,
Moş, qarağat, çiyələk.
Gətirsin ətək-ətək,
Doymasın Ayrin balam.

Sarışın, ipək teli,
Balaca totuq əli,
Nənəsini qüssəli
Qoymasın Ayrin balam.

NƏVƏM İSMAYIL

Harayım, hayım,
Tanrıdan payım.
Ulduzum-ayım,
Nəvəm İsmayıl.

Balam balası,
Ciyərparası.
Dərdim çarası,
Nəvəm İsmayıl.

Zirvəli dağım,
Güllü yaylağım,
Qoşa bulağım,
Nəvəm İsmayıl.

Gözümün nuru,
Ömrümün yolu,
Nağılla dolu,
Nəvəm İsmayıl.

Yisif camallı,
Dərya kamallı,
Adı cəlallı,
Nəvəm İsmayıl.

Evdə çırağım,
Yerdə dayağım,
Aranım-dağım,
Nəvəm İsmayıl.

Sadənin gülü,
Ağzında dili,
Başında teli,
Nəvəm İsmayıl.

AYSEL

Tanrı səni yaradıb
Eşqin nurundan Aysel.
Yanağına rəng verib
Dağlar gülündən Aysel!

Türkün ilki əzəli,
Tərəkəmə gözəli,
Dili şirin, məzəli,
Arı balından Aysel!

Şenlik gəzən obanı,
Nuş etdiyi badəni,
Sor Səringül Sadəni,
Çıldır gölündən Aysel!

ASİF

Borçalının övladıdı,
Xeyirxahlıq ustadıdı.
Könül açmaq muradıdı,
Xoş arzusu - gümanı var.

O, çox sevir sədaqəti,
Etibarı, səxavəti.
Qazanıbdı çox hörməti,
El- obada ad-sanı var.

Asif həm də Hacı olub,
Başımızın tacı olub.
Ürəyinə insaf dolub,
Namazı var, Quranı var.

İnsanların halalıdı,
Doğruluğun calalıdı.
Savadlıdı- ziyalıdı,
Onun elmi- ürfanı var.

Təmkini dağ, səbri ümman,
Allah onu etsin şadman.
Tək dolanmaz heç bir zaman,
Dost- tanışı, mehmanı var.

ELNARƏ

Tanrı verən payımsan,
Günəşimsən, ayımsan.
Dolğun sulu çayımsan,
Bircə qızım Elnarə.

Mənim güllü baharım,
Can-ciyərim, madarım.
İftixarım, vüqarım,
Qumral quzum Elnarə.

Səndən alıb ilhamı,
Sadə deyir kəlamı.
Bu həyatdan al kamı,
Dan ulduzum Elnarə.

SEVİMLİ QIZIM
(Qızım Elnarəyə)

Sevimli qızım,
Ey qumral quzum.
Olubsan mənim
Ayım-ulduzum.

Gülüm-çiçəyim,
Gözü göyçəyim.
Yaşın mübarək,
Gözü göyçəyim.

Ağıllı başlım,
Aypara qaşlım,
Ağıl-zəkadan,
Dostlu, sirdaşım.

FİDANIM

(nəvəm Fidana)

Ay dizimin taqəti,
Ay belimin qüvvəti,
Ay dilimin söhbəti,
Əziz balam, Fidanım,
Sənə qurban bu canım.

Gülüstanım, gülşənim,
Gül-çiçəyim, çəmənim,
Qızılgülüm, süsənim,
Əziz balam Fidanım,
İnci, yaqut, mərcanım.

Göydə günəş, sən ayım,
Tanrım verən nur payım,
Dağdan axan gur çayım,
Əziz balam, Fidanım,
Səringülə həyanım,

GÖZƏL FİDANIM

Canım olsun yaradana sadağa,
Bəzək vurub yanağa, həm dodağa.
Qələm çəkib lap təpədən dırnağa,
Cahi-calalımdı gözəl Fidanım.

Günəşə güzgüdü gözü bu qızın,
Nurdan yaranıbdı üzü bu qızın,
Müşk-ənbər qoxuyur özü bu qızın,
Göydə hilalımdı gözəl Fidanım!

Şəmdi bu qız, pərvanələr dolaşır,
Ulduz olub göydən yerə sayrışır,
Üzünə baxanda ağıl-huş çaşır,
Pətəkli balımdı gözəl Fidanım!

Dəryalarda üzən bu qız sonadı,
Xınalı kəklikdi, telli durnadı,
Ağzından dürr tökür, dili xurmadı,
Dövlətim-malımdı gözəl Fidanım!

Qıvrım gur saçları qaranlıq gecə,
Onun saf ürəyi incədən-incə!
Qanad açır Səringülü görüncə,
Arzu-amalımdı gözəl Fidanım!

TURANIM

Ey balamın balası,
Arzu, ümid qalası.
Gəlişinlə yox etdin
Qəmi, dərdi, təlaşı.

Ay Turanım, ay canım,
Yerim-göyüm, cahanım.
Sevinc verdin bizlərə,
Sən ey tabi-təvanım.

Böyü, igid oğlan ol,
Səringülə həyan ol.
Yara elə-obaya,
Bax belə bir insan ol.

TÜRKAN

Dağım-aranımsan, coşqun çayımsan,
Gündüzlər günəşim, gecə ayımsan,
Tanrı göndərdiyi şirin payımsan,
Ömrümün cığırı-yolusan, Türkan,
Baxan gözlərimin nurusan, Türkan.

Böyü sədaqətlə, fərəhlə yaşa,
Ellər hünərinə etsin tamaşa,
Həmişə vüqarsan qohum-qardaşa,
Arzumun qanadı-qolusan, Türkan,
Görən gözlərimin nurusan, Türkan.

Səringülün gözü yollarda qaldı,
Əsən küləklərdən ətrini aldı.
Hər sözün-söhbətin şəkərdi-baldı,
Axar sular kimi durusan, Türkan,
Baxan gözlərimin nurusan, Türkan!

QARDAŞ, ALDIM SALAMINI
(Harun Kocaya)

Türkiyə tək ağır eldən,
Ləhcəsi bal kimi dildən.
Duydum bir sarı bülbüldən,
Qardaş, aldım salamını.

Külək kimi dağ-dərəni,
Açıb döydü pəncərəmi.
Haqq qorusun göndərəni,
Qardaş, aldım salamını.

Nə yatıb nə də dincəldi,
Düşünmədi yol əngəldi.
Göndərdiyin qulun gəldi,
Qardaş, aldım salamını.

Harun şair, həm də aşıq,
Sadə sözünə yaraşıq,
İstəkli bacı-qardaşıq,
Qardaş, aldım salamını.

AL QARDAŞ ƏLEYKİSALAM
(Çox hörmətli Harun Qocaya)

Qarapapaq oylağından,
Türkəm Türkün torpağından.
Başkeçidin yaylağından,
Al qardaş əleykisalam.

Bir dünyadı Şənlik sözü,
Ürəklərdə sönməz közü.
Borçalımda olub özü,
Bil qardaş əleykisalam.

Gedən varsa, gələn varsa,
Sor doğruyu bilən varsa.
Özəl olub bizdən Qarsa
Yol qardaş əleykisalam.

Harun, gəl gəz bizim eli,
Sənin-mənim Çıldır gölü.
Tərəkəmə şəkər dilli,
Bal qardaş əleykisalam.

Can Türkiyəm, Azərbaycan,
Sadə olsun sizə qurban.
Qarşımızda böyük Turan
Var qardaş əleykisalam.
Al qardaş əleykisalam.

YILMAZOĞLU AŞIQ YÜKSƏL

Göyün ayı-ülkərisən,
Yerin ləli-gövhərisən.
Aşıq, şairlər sərisən,
Yılmazoğlu Aşıq Yüksəl,
Can istəsən canı verər!

Borçalıda aşıq Şenlik,
Meydan qurub edib şənlik.
Gəl qonaq ol onca günlük,
Yılmazoğlu Aşıq Yüksəl,
Gəz dağları gülünü dər!

Yolu Tanrının yoludu,
Sinəsi sözlə doludu,
Səringülün göz nurudu,
Yılmazoğlu aşıq Yüksəl,
Hazırcavab, sinədəftər!

XINALI MAMAM

Ağzı xeyir-dualı,
Mənə anam misalı.
Dünyanın əhli-halı,
Köçdü Xınalı mamam.

Dərd vermədi, dərd aldı,
Ad alıb, süfrə saldı.
Bizlərə layla çaldı,
Dili laylalı mamam.

O, dağların maralı,
Dağdan düşdü aralı.
Oldu torpaq qalalı,
Şindi yaylalı mamam.

1 *Qərb bölgəsində, xüsusilə də Qazaxda, Borçalıda "bibi"yə "mama" deyə müraciət edirlər.*

DAĞLARIN
(Bacım oğlu Faiqə)

Söylə mənə, ay bacıoğlu,
Necədir halı dağların?
Gül-çiçəkdən don geyibmi,
Yamacı-yalı dağların?

Başında örpəyi ağmı,
Duman-çiskin, boran-qarmı?
Danış görək yenə varmı
Qaymağı, balı dağların?

Havasımı həkim-loğman,
Sularımı dərdə dərman.
Yada düşür zaman-zaman
Yaşılı-alı dağların.

A MƏMMƏDİM

A Məmmədim, neylədin,
Xalanı heç eylədin.
O qədər dərd ələdin,
Dərdi dərdə bağlaram.

Səndən ilham alırdım,
Xəyallara dalırdım.
Laylanı da çalırdım,
İndi səni ağlaram.

Sadə dözdü azara,
Bəxti oldu lap qara.
Gedənəcən məzara,
Bu sinəmi dağlaram!

OLDUQ

(Bacım Səadət Butanın dünyadan vaxtsız köçən oğlu Məmmədin əziz xatirəsinə)

Dərd-qəm əkdik, çəkdik çilə,
Suvardıq göz yaşı ilə.
Çox "bar" dərib düşdük dilə,
Biz də belə bağban olduq.

Məmməd dərdi əydi bizi,
Dolu kimi döydü bizi.
Heç gülmədi bəxtin üzü,
Yanıb tüstü-duman olduq.

Bu ayrılıq könül yıxdı,
Səringüləm, canım çıxdı.
Fələk bizi elə sıxdı,
Ömür boyu peşman olduq.

DÜNYA

Ay oğul, inanma kimlər söyləsə,
Yalandı, talandı, virandı dünya.
Eşq ilə yaranıb, eşqdən doğulub,
Sevgisini haqdan alandı dünya.

Fərq qoymaz kimsəyə budu qaydası,
Pozulmaz növrağı, nə də sırası.
Bir körpüdü haq-nahaqqın arası,
Gələnləri yola salandı dünya!

Kədəri gecədi, gündüz sevinci,
Daşda gül bitirər, dəryada inci.
Dəliyə döndərər rahatı-dinci,
Qurdla qiyamətə qalandı dünya.

QARDAŞ-BACI

Qardaş-bacı oldu andım,
Başlarına hey dolandım.
Suya düşdüm, odda yandım,
Mən onların yollarında.

Qardaş-bacı can-ciyərim,
Göydə günəş, ay ülkərim.
Onlar mənim dürr-gövhərim,
Can verəydim qollarında.

Sadə, sözü sona yetir,
Dəyərlidi hər bir sətir.
Ulu Tanrım, güllər bitir
Qardaş-bacı güzarında!

BACILARIM

Allahım xoş gündə eyləyib əta,
Gözümün nurudu Səadət Buta,
İnanmıram ona kimsələr çata,
O, Vətən eşqiylə yazıb-yaradır.

Bir bacım da vardı, şirincə canım,
Səliqə-sahmanlı Elmira xanım.
Yaman tezcə köçdü bacım-hayanım,
O, da sel aparan başqa Saradır.

Mənim Gülnar bacım gözümün nuru,
O, aydan arıdır, sudan da duru.
Odur Səringülün fəxri-qüruru,
Bizim sonbeşikdir-ciyərparadır!

BACI QARDAŞINDAN ÜSTÜNDÜ-ÜSTÜN!

Qardaş var həmişə könül bulayar,
Bacı qardaş deyib torpaq yalayar.
Onu gözlərinin işığı sanar,
Bacı qardaşından üstündü-üstün.

Əgər xəstələnib ağrısa qardaş,
Bacı onun üçün bil ki, qoyar baş.
Qardaş ayağına dəysə kiçik daş,
Bacısı dolanar üzgündən-üzgün!

Yaxşı anlayarsan, gəz bu aləmi,
Bacılı qardaşın çoxalar dəmi.
Bacısız qardaşın azalmaz qəmi,
Səringül sözüdü düzgündən-düzgün!

BALALARIMA NƏSİHƏT

Ömrüm tarixlərin qan yaddaşıdı,
Dərdi ilmə-ilmə toxudum, bala!
Sizin qəlbinizdən olub keçəni,
Nəmli gözünüzdən oxudum, bala.

Bu döyüş meydanı çox insanları,
Öləyib ələkdən keçirib bala.
Gözlərim görübdü nahaq qanları,
Dünya gözlərimdə kiçilib, bala!

Gecələr yol çəkib yorğun gözlərim,
Qəlbim cadar-cadar, ürəyim qırıq.
Üstümə dünyanın odu ələnib,
Hünərdi həyatda ayaqda qalmaq.

Boranlı, dumanlı günlər içində,
Axıb gözlərimdən odlu yağışlar.
Yeridim tufanlı, sellər içində,
Məni büdrətmədi atılan daşlar.

Çətin sınaqlarda qızıl anları,
Yaşadım ömrümü igid ər kimi,
Dayanıb ötürdüm çox karvanları,
Hünər meydanında cəngavər kimi!

Sizin qarşınıza ata tək çıxıb,
Sizinlə böyütdüm ümidlərimi,
Həsrəti, niskili bağrıma sıxıb,
Qəlbimdə dəf etdim öz dərdtlərimi.

Gah sizə güvəndim, gah sözə hərdən,
Çətin anlarımda hər an var kimi.
Bir dərya çağladı düşüncələrdən,
Sahilə can atan dalğalar kimi.

Çınqıllı qayalar əzdi dizimi,
Dünyada yaxşılıq qalandı, bala.
Yadigar saxlayım ürək sözümü,
Bu dünya boşalan dolandı, bala!

Ömrüm alovlardan-odlardan keçib,
Nəsli-nəsillərə bağlayır yolum.
Sizə ata oldum ana yerinə,
Mənim taleyimdən xəbərdar olun!

BACI

Böyükdür bacıda qardaş istəyi,
Bu eşq ilə vurur onun ürəyi.
Hamının olubdu bacı gərəyi,
Bacısız qardaşın dərd-məlalı var.

Bacıdır and içir qardaş başına,
Mən qurbanam deyir torpaq-daşına,
Qardaşın şad günü gələr xoşuna,
Bax bacının belə gözəl halı var.

Qardaş sevən kəsin öpüm gözünü,
Tanrım söndürməsin ocaq-közünü.
Beləcə bitirir Sadə sözünü,
Bacılı qardaşın cah-calalı var!

NƏNƏ

Başa salar dünyanı,
Deyər nağıl-dastanı.
Olar nəvə qurbanı,
Bizim eldə hər nənə!

Özü geyməz, geydirər,
Özü yeməz, yedirər.
Vətən millət dedirdər,
Nəvəsinə sər nənə!

Nənə bilib qiymətin,
Saxlar nəvə hörmətin.
Sən taparsan çox çətin,
Səringül tək zər nənə!

KƏNDİM

Var ol səni, doğma kəndim,
Mən dil açıb səndə dindim.
Dağa qalxıb düzə endim,
Hər yanına cığır saldım.

Yedim yağ-bal, qaymağından,
Çox su içdim bulağından.
Yayda keçdim yaylağından,
Dəyəmizdə xeyli qaldım.

Gah duruldum, gah bulandım,
Çəmənləri çox dolandım.
Tək sən oldun əhdim-andım,
İlhamımı səndən aldım.

Zaman məni saldı selə,
Qəm-kədərim düşdü dilə.
Gedən zaman qürbət elə,
Sevincimi daşa çaldım.

Elim-günüm, ömrüm yanıb,
Qəriblikdən can usanıb.
Səringüləm, sizi anıb
Xəyallara mən çox daldım.

MANYA MÜƏLLİMƏ

Bir zaman dərsini bizə deyərdi,
Sözünü həmişə üzə deyərdi.
Ziyalı insandı, cana dəyərdi,
Manya müəllimə – O, cənnətməkan.

Yüksək idi elmi, mənəviyyatı,
Kitabla keçərdi ömrü-həyatı,
Ən çox sevərdi o, ədəbiyyatı,
Manya müəllimə – O, cənnətməkan.

Səringül meylini ona salmışdı,
Çox erkən qəlbini qəmlər almışdı.
Cavan yaşındaca yarsız qalmışdı,
Manya müəllimə – O, cənnətməkan!

NAMAZ MÜƏLLİM

Olub bizim üçün çox əziz bəndə,
Alnıaçıq gəzib çöldə-çəməndə.
Başkeçid elində, doğma Vətəndə,
Hörmət sahibidi Namaz müəllim.

Coşqun ilhamı var, bənzər dənizə,
Həmişə sözünü deyəndi üzə.
Oxuyub yazmağı öyrədib bizə,
Təhsil talibidir[1] Namaz müəllim.

Sadənin inamı dərindən dərin,
Bilir əsasını hər dərdi-sərin.
Ağrılı-acılı keçən günlərin,
Qoca qalibidir, Namaz müəllim.

[1] Talib – həvəskar

DAYIM BALASI
(Dayım oğlu Vəkilə)

Haram yox, halal axtardı,
Tapmadı dayım balası.
Nədənsə, arzu-murada
Çatmadı dayım balası.

Gen gəzdi qohumu-yadı,
Qalmadı ağzının dadı.
Gecələr göz yumammadı,
Yatmadı dayım balası.

Özü yox, adı cahanda,
Səringül anar hər an da.
Xəyalın bu ümmanda,
Batmadı dayım balası.

DAYIM OĞLU

(dayım oğlu Vəkilə)

Həmişə zəhmət çəkən,
Hamıdan zillət çəkən,
Qazanan, qeyrət çəkən,
Kərəmli dayım oğlu.

Qədəhi qəmlə dolan,
Çoxundan irad alan,
Kəlamı dərin olan,
Qələmli dayım oğlu.

Bəxtinə pis gün düşən,
Hamıdan küskün düşən,
Vətəndən itkin düşən,
Ələmli dayım oğlu.

DAYOĞLU
(İsmayılov Tofiqə)

Vəkil dərdi, Nəbi dərdi,
Dağdan ağır, ay Dayoğlu.
Təkcə gəlib bizə dərd-qəm,
Tanrımızdan pay, Dayoğlu.

Hər ikisi dərdli ozan,
Qoşa yazıb bəxti yazan.
Nə karədi onu pozan,
Fələk tutdu toy, Dayoğlu.

Gəzər gözüm toy-nişanda,
Görəmmərəm heç bir yanda.
Aşıq mahnı oxuyanda
Göz yaşımdı çay, Dayoğlu.

Sinə dağdı, ürək yara,
Doğulublar bəxti qara.
Hər gün düşən ahu-zara,
Olmaz bizə tay, Dayoğlu.

Tezcə soldu neçə gülü,
Yandı, kömür oldu dili.
Çatmadı bir yana əli,
Səringülün, vay, Dayoğlu!

DAYIM OĞLU

Murazı gözdə qaldı,
Alovda-közdə qaldı.
Söhbətdə-sözdə qaldı,
Bəxtikəm dayım oğlu.

Etdiyi hörmət oldu,
Gəzdiyi qürbət oldu.
Çəkdiyi zillət oldu,
Gördü qəm dayım oğlu.

Hey dağdan-düzdən yazdı,
Cığırdan-izdən yazdı.
Doğrudan-düzdən yazdı,
Bir aləm dayım oğlu.

Vəkilim uçub getdi,
Torpağı qucub getdi,
Nurunu saçıb getdi,
O didəm dayım oğlu.

Anırdı Səringülü,
Qanırdı Səringülü.
Sanırdı Səringülü,
Yanar şəm dayım oğlu.

MƏNİM TOFİQ DAYIM OĞLU

Yaxşı bilir sənətini,
Asan edir hər çətini.
Çəkir qohum qeyrətini
Mənim Tofiq dayım oğlu.

Aşıqları bilir əzbər,
Onda çoxdu ağıl-hünər.
Olubdu bir sinədəftər,
Mənim Tofiq dayım oğlu.

Buta onun ləl-gövhəri,
Səringülün bal-şəkəri.
İşdə tökür alın təri
Mənim Tofiq dayım oğlu.

DAYIM OĞLU
(İsmayılov Bəkirə)

Qarşıdakı qarlı dağ
Sərxandı, dayımoğlu.
Havası-suyu cana
Dərmandı, dayım oğlu.

Göyün ayı-ulduzu,
Yerin lilpar yarpızı,
Özünün mamanqızı,
Ceyrandı, dayım oğlu.

Üstünü aldı duman,
Gözümdən axdı leysan,
Bildim ki, cümlə-cahan,
Yalandı, dayım oğlu.

Bağça-bağ olmaz gülsüz,
Heç nədir gül-bülbülsüz,
Bu könlüm hər vaxt sənsiz,
Virandı, dayım oğlu.

Fələk tənha edəli,
Dərd çəkdim oldum dəli,
Səringül sən gedəli,
Nalandı, dayım oğlu.

AYAZ ANA

Olubdu bir ağa qızı,
Parlayıbdı bəxt ulduzu.
İtirməyib çörək-duzu,
O rəhmətlik Ayaz ana.

Osman baba sirdaşıydı,
Onun həyat yoldaşıydı.
Qadınların bil, başıydı,
O rəhmətlik Ayaz ana.

Bəxt-qisməti tərs gətirib,
Ərini də tez itirib.
Ömrü sona tək yetirib,
O rəhmətlik Ayaz ana.

Qarnına bir daş bağlayıb,
Uşağına gün ağlayıb.
Çaylar kimi hey çağlayıb,
O rəhmətlik Ayaz ana.

Biz də ona ana dedik,
Süfrəsindən çörək yedik.
Bizə verdi öyüd- bilik,
O rəhmətlik Ayaz ana.

AYAZ

Gecələr yuxumda aya dönürsən,
Gündüz günəş kimi saçırsan, Ayaz.
Şirin xəyallara ümid verirsən,
Sevdiyim bulaqda açırsan, Ayaz.

Aç qolunu, balam, yollara sarı,
Həsrət çəkə bilməz qəlbə hasarı.
Ərisin Şindinin, Sərxanın qarı,
Yuxumda dağlara köçürsən, Ayaz.

Səringülün qəlbi bil ki, şan-şandı,
Nəvələri üçün hey nigarandı.
Yazdığı misralar ondan nişandı,
Hər gün ürəyimdən keçirsən,Ayaz.

VALEHƏ

Əsən yellər, uçan quşlar aparın,
Qərib, qürbət eldən salam Valehə.
Qardaşım balası, canım parası,
Eldən bərəkallah alan Valehə,
Görənlər söyləyin salam Valehə!

Xeyirxahlıq ona Tanrıdan paydı,
Səxavətdə əli Hatəmə taydı.
Əməli yaxşılıq, etdiyi toydu,
Cavankən ağsaqqal olan Valehə,
Görənlər söyləyin salam Valehə!

Tək qalıbdı, yoxdu gələn qonağı,
Yol gözləyir Osman baba bulağı,
Dağlar da söyləyir balam Valehə,
Görənlər söyləyin salam Valehə!

MAMOĞLU
(Rəhmətlik Qaralov Akifə)

Görənmədim bu dünyada,
Sən tək ərən, ay mamoğlu.
Qohum-qardaş, el-obaya
Canı verən, ay mamoğlu.

Barmağını şam eylədin,
Qaranlığı dan eylədin.
Neçə toy-nişan eylədin,
Uzaqgörən, ay mamoğlu.

Qətrə idin, ümman oldun,
Axıb könüllərə doldun.
Tikib-qurdun, tezcə soldun,
Görən nədən, ay mamoğlu?!

Sənə torpaq-daş ağladı,
Ağıl çaşdı, huş ağladı.
Sadə, cüt qardaş ağladı,
Kül oldum mən, ay mamoğlu.

ATƏŞİN

Xanım-xatın bir ziyalı insandı,
Yar-yoldaşa, yaxınlara həyandı.
Hər kəlməsi min bir dərdə dərmandı,
Dəyərlidi söhbət-sözü Atəşin.

Yaxşılıqdan körpü salıb, yol çəkir,
Dost bağına heç solmayan gül əkir.
Günəş.olub göydən yerə nur səpir,
Haqqa doğru yolu-izi Atəşin.

Könül evi bilin dərya-dənizdi,
Səringülə canı qədər əzizdi.
Aydan arı, axar sudan təmizfi,
Gözəllikdən doymur gözü Atəşin.

MİRVARİD

Doğuldu Qazaxda dağ çiçəyitək,
Şeiriylə zirvəyə qalxdı Mirvarid.
Gözünə nur bilib Azərbaycanı,
Dünyaya boylanıb baxdı Mirvarid.

Ömrü-günü vətən oldu, el oldu,
Dərdi, səri Göyçə adlı göl oldu,
Həsrətindən bir dəlisoy sel oldu,
Arazın qoynuna axdı Mirvarid.

Sadəcə dolandı, sadəcə geydi,
Nə könül sındırdı, nə qəlbə dəydi,
Haqsızın önündə haqlı söz dedi,
Səmada şimşəktək çaxdı Mirvarid.

Əzbərdən söylədi ali Quranı,
Sevdi yaradanı, sevdi quranı,
Səringül Sadənin sözünün canı,
Tayın-bərabərin yoxdu Mirvarid.

MİRVARİD

Dünyaya yer verdi könül mülkündən,
Dəryalar gözündə inci Mirvarid.
Ərənlər əlindən bir badə aldı,
Haqqın, ədalətin bürcü Mirvarid.

Eşqin zunyətinə aləm tay olmaz
Sızqa selə dönüb axar çay olmaz,
İlhamla yazılan şeir zay olmaz
Sənətin ahılı-gənci Mirvarid

Əlvan güllər açdı bəyaz baxtında,
Oturdu sənətin şahlıq taxtında,
Zamanın nəbzini tutdu vaxtında,
Gördü gələcəyi gör(ü) cü Mirvarid.

Şair var, əlləşir alın təriylə,
Şair var, oynayır altun, zəriylə,
Hər zaman xeyirxah əməlləriylə,
Oldun söz mülkünün mücrü Mirvarid.

GÜLLÜ BACIM

El-obanın sevincidi,
Altun-axça bir incidi.
Sədaqətdə birincidi,
Şirindilli Güllü bacım .

Olubdu o sinədəftər,
Elm-urfandan verir xəbər.
Hər işdə də çalır zəfər,
Şirin dilli Güllü bacım.

Əl işləri incə, zərif,
Sadə onu edir tərif.
Hamılara əziz-şərif,
Şirin dilli Güllü bacım.

ƏHMƏD MÜƏLLİM
(Əhməd Vəli oğluna)

Hörməti-izzəti qəlblərə dolub,
Mənim müəllimim, ustadım olub.
Atam kimi qolum-qanadım olub,
Təmkin-tədbirliydi Əhməd müəllim.

Ad-san qazanmışdı obada-eldə,
Səliqə-sahmanı gəzirdi dildə.
O həm sənətində, həm də təhsildə,
Sadə, səbirliydi Əhməd müəllim.

Demişdi Sadəyə bu həyatı qan,
Köçüb gedib indi fani dünyadan,
Rəhmətlə anılır yenə hər zaman,
Sanki sehrliydi Əhməd müəllim.

HACI SƏLİM BƏY

Ağzı dualıdı, din-imanlıdı,
Bir aqil insandı, elm ürfanıdı.
Xalqını sevəndi, qohumcanlıdı,
Qazanıb saf adı Hacı Səlim bəy!

Çətinə düşənə yol göstərəndi,
Eldə tanınmışdı, igid -ərəndi.
Hikmət baxçasından güllər dərəndi,
Dostulu övladı Hacı Səlim bəy!

Onunla fəxr edir Sadə hər zaman,
Əhdinə sadiqdir, doğruldur güman.
Hara əl uzatsa olur gülüstan,
Ustadlar ustadı Hacı Səlim bəy!

YUNUS QAĞAMIZ

Yaşadı vətənə-torpağa bağlı,
Həm aranlı idi, həm də ki, dağlı.
Nəsihət eyləyib, verirdi ağlı,
Çox gözəl insandı Yunus qağamız.

Onun adı-sanı hey gəzir dildə,
Hörmət sahibiydi bizim nəsildə.
Ulu Başkeçiddə, obada, eldə,
Bir əziz mehmandı Yunus qağamız.

Səvaxət olmuşdu onun marağı,
Əliaçıq idi Hatəm sayağı,
Neçə imkansıza verib dayağı,
Dərdlərə dərmandı Yunus qağamız.

Dilindən düşmürdü Allahın adı,
Tutubdu yolunu neçə övladı.
Sevirdi aşığı, sazı, ustadı,
Dəryadı, ümmandı Yunus qağamız.

Qaraçöp elinə olub şöhrət-şan,
Gərəkdi şəninə deyilə dastan.
Səringül söyləyir,qoy bilsin cahan,
Bir cənnətməkandı Yunus qağamız!

BİZİM KÖNÜL KÖŞKÜMÜZÜN

Öz cığırı, öz izi var,
Bizim könül köşkümüzün.
Deyilməmiş yüz sözü var,
Bizim Könül Köşkümüzün.

Hələ qönçə, təzə-tərdi,
Kişiləri igid-ərdi,
Xanımları ləl-gövhərdi,
Bizim Könül Köşkümüzün.

Nə bəndi, nə bərəsi var,
Sazdan-sözdən şələsi var,
Kərəmi var, Lələsi var,
Bizim Könül Köşkümüzün.

Aida xanım görən gözü,
Sevir haqqı, doğru-düzü,
Odur ocağının közü,
Bizim Könül Köşkümüzün.

Gürcüstanla, Azərbaycan,
İraq, Kərkük, Qazaxıstan,
Ay Səringül, axrı Turan,
Olub Könül Köşkümüzün!

AYRILDIM CAH-CALALIMDAN

Gah duruldum, gah bulandım,
Bəzən alov-odda yandım.
Qürbət eli çox dolandım,
Uzaq düşdüm Borçalımdan.

Neçə illər bundan qabaq,
Qaraçöpdə oldum qonaq,
Xanım mama və bir uşaq,
Çıxmır mənim xəyalımdan.

Uşaq Tanrı töhfəsiydi,
Şaxı mama körpəsiydi,
Yerin-göyün müjdəsiydi,
Anlayırdı hər halımdan.

Danışmırdı hələ dili,
O salmışdı mənə meyli,
Şad olanda uşaq xeyli,
Əl çəkirdim mələlımdan.

Musa deyib oxşayırdım,
Gündə beş yol yoxlayırdım.
Qardaş kimi saxlayırdım,
Razı idim bu halımdan.

Mənsiz qalsa ağlayırdı,
Ana-bacı, dost sanırdı,
Mənə ümid bağlayırdı,
Yapışırdı hey şalımdan.

Vədə gəlib, vaxt bitəndə,
Dönən zaman doğma kəndə,
Səringüləm, sandım mən də,
Ayrıldım cah-calalımdan.

NARIN QAYASI
(Narın nənəyə Allah rəhmət eləsin)

Daş məhlədə bir təpə var,
Bizim üçün olub gülzar.
Hamıya da çox agahdı,
Bizə daim seyrəngahdı.

Orada var böyük qaya,
Dəyişmərəm mən dünyaya.
Həmin o Narın qayası,
Olmuşdu sevinc mayası.

Dolanardıq orda müdam,
Oynayardıq səhər-axşam.
Düzəldərdik daşdan xına,
Göstərərdik ona-buna.

Keçirməzdik günü hədər,
Nələr etdi, görsən qədər.
Ayrı düşdük biz o yerdən,
Fələk saldı saçlara dən!

AY MƏMMƏD
(Aşıq Məmməd Pirismayıla)

Məmmədim üzən könlümə,
Şirin layla çal ay Məmməd.
Saz-söz ömrü yaşa səni,
Xoş avazı bal, ay Məmməd.

Çal sazını bəmdə-zildə,
Dil-dil ötsün pərdə-pərdə,
Elə oxu Sarıteldə,
Məni məndən al, ay Məmməd.

"Cəngi" çal, ərlər oynasın,
Meydanında mərd dayansın.
"Kərəmi"ndə Kərəm yansın,
Gül bitirsin kül, ay Məmməd.

BİZİM QƏZƏNFƏR

Bir igid oğuldur şir-aslan kimi,
Verir fərmanını xan-sultan kimi.
Çatır dada-hoya pəhləvan kimi,
Sözünün ağası bizim Qəzənfər.

Ana xəstə ikən çəkdi zəhməti,
Durub qulluğunda etdi hörməti.
Ataya göstərdi çox nəzakəti,
Xasların ən xası, bizim Qəzənfər.

Allah dərgahına gedəndə ana,
Sadə də ağladı hey yana-yana.
Cənnətlik olasan söylədi ona,
Geydi qəm libası bizim Qəzənfər!

ZƏRİFƏ
(Qəzənfərin anasına)

Qonşum vardı ana kimi,
Dolanardı sona kimi,
Qəlbən sevdim sona kimi,
Xanım-xatın Zərifəni.

Bir qadındı halal-hümmət,
Gözləyərdi hörmət-izzət,
Çox sevirdi kənddə millət,
Xanım-xatın Zərifəni.

Xəstəlikdən çəkdi möhnət,
Qismət olsun ona cənnət.
Sadə anıb deyir rəhmət,
Xanım-xatın Zərifəni.

BƏYLƏR ƏMİ

Üzü nurlu dan işığı,
Sevir şair, həm aşığı,
Könül açır danışığı,
Ərkanlıdı Bəylər əmi!

İxtiyardı-ağsaqqaldı,
Danəndədi, əhli-haldı.
Qocamandı, pürkamaldı,
Adlı-sanlı Bəylər əmi!

Qoymaz düşsün Sadə dara,
Həmdəm olur dosta-yara.
Hamı bilir qonaq-qara,
Mehmanlıdı Bəylər əmi!

ƏMİMOĞLU BAYRAMDI, BİL

Dağı sevib dağda qalan,
İlhamını eldən alan,
Qəribləri yada salan,
Əmimoğlu Bayramdı, bil!

Kökü-soyu Molla Piri,
Hey işləyib tökən təri,
Adı-sanı dil əzbəri,
Əmimoğlu Bayramdı, bil!

Səringülə əziz olan,
Qəlbi ümman-dəniz olan.
Saflardan saf, təmiz olan,
Əmimoğlu Bayramdı, bil!

AY GÜLAYAT!

Din-imanım, şirin canım,
Dərd duyanın, əhli-halım.
Çoxalıbdı dərd-məlalım,
Gözəl bacım, ay Gülayat!

Qoşa gəzək biz dağları,
Sarf dərəni, Əyriqarı.
Yığaq yarpızı, lilparı,
Gözəl bacım, ay Gülayat!

Yol gözləyir Qoşabulaq,
Gedək olaq ona qonaq.
Moş, qarağat, moruq yığaq,
Gözəl bacım, ay Gülayat!

Aşıq Pəri yadigarı,
Başkeçidin şirin barı,
Borçalının iftixarı,
Gözəl bacım, ay Gülayat!

Bayatını gətir dilə,
Gəl layla de Səringülə.
Yaşı axır gilə-gilə,
Gözəl bacım, ay Gülayat,
Başda tacım, ay Gülayat.

BACIM
(Əziz bacım Azadə Talehə)

Məsləhət alanın çox,
Heç tayın-əvəzin yox.
Qəlbin saf, gözlərin tox,
Ey mənim şair bacım!

Azadə Talehimsən,
Bəllidi burda kimsən.
Bir qövsi-quzehimsən,
Ziyalı, naşir bacım!

Olmusan Hacı xanım,
Sən mənim şöhrət-şanım.
Hey yazıb-yaradanım,
Sənətdə mahir bacım!

AY PƏRVANƏ

Bu dünyanın nadanı var,
Yaxşısı var, yamanı var.
Sənin kimi ceyranı var,
Gözəl bacım, ay Pərvanə.

Kol-kos gülə tay olammaz,
Ulduz gəlib ay olammaz.
Hər axan su çay olammaz,
Gözəl bacım, ay Pərvanə.

Sadə deyir, hər bir zaman
Fitnəkardan kənar dolan.
Sənsən bizə həmdəm olan,
Gözəl bacım, ay Pərvanə.

RƏHİMƏ

Əzəl gündən dost həyanım,
Şirindilli ay Rəhimə.
İstiqanlı mehribanım,
Qıvrım telli ay Rəhimə.

Gözün günəş, camalın ay,
Gözəlliyin Tanrıdan pay.
Etibardan qurdun saray,
Adıbəlli ay Rəhimə.

Rauf, Murad can yoldaşın,
Bir sonasan başı yaşıl.
Hacılıq sənə yaraşır,
Məkkə yollu ay Rəhimə.

Bu dünyanın sanı beşdi,
Gələn gəldi, köçən köşdü.
Yaxşı canlar başdan başdı,
Kərəm əlli ay Rəhimə.

Səringül Sadənin canı,
Yaxşılıqdı din imanı.
Şen olsun Azərbaycanı,
Qalib elli ay Rəhimə.

BRİLYANT XANIMA

Vəsf edir vətəni Azərbaycanı,
El-oba yolunda qoyubdu canı.
O aydan arıdı, sudan da duru,
Brilyant Atəşdi şeir uzmanı.

Bilir söz qüdrətini,
Yazır öz hikmətini.
Brilyant Atəş xanım,
Çox sevir millətini.

SEHRAN XANIM

Dilləndirir- elə çalır kamanı,
Sehran xanım əfsun edir insanı.
Onun ilə fəxr eləyir xalqımız,
Maarifdə də qazanıbdı ad-sanı.

Seçir hər bir avazı,
Sevir baharı-yazı.
Könüllər şad etməkdi,
Sehranımızın murazı.

MÜNƏVVƏR XANIM

Şəhid bacısıdı bizim Münəvvər,
O illər uzunu çəkibdi qəhər.
Qarabağ şəhidi Nəsib qardaşı,
Ölməyib, yaşayır bizlə bərabər.

Sevir vətən-dövləti,
Qazi, şəhid -milləti.
Mənim bacım Münəvvər,
Qazanıb el hörməti.

AŞIQ TƏRMEYXAN

Dillərdə dastandı Tərmeyxanımız,
Bizim şöhrətimiz, bizim şanımız.
Eşq-ilham sahibi ustad aşıqdı,
Onsuz keçməyir heç toy-nişanımız.

Ustad aşıq Tərmeyxan,
Qazanıbdı çox ad-san.
Çalışıbdı el üçün,
Sadə deyir ona can.

ASİFƏ

Çox oxuyur kitab,
Tapır neçə cavabı.
Sinə bacım qazanır,
Yaxşılıqda savabı.

***

Könül qızım var olsun,
Bağçasında bar olsun.
Ziyalı bir qadındı,
Tanrım ona yar olsun.

***

İradə Əlili vətəndən deyir,
Dar gündə də dada yetəndən deyir.
Qarabağ eşqiylə yazıb yaradır,
Qazidən, şəhiddən-ərəndən deyir.

***

Bir gözəl aşıqdı bülbül avazlı,
Açır könülləri o xoş murazlı.
Şan-şöhrət qazanıb eldə-obada,
Borçalı övladı Həcər Darvazlı.

***

Onun hər sözündə dərin hikmət var,
Hamımız edirik onla iftixar.
Sazıyla-sözüylə ad-san qazanıb,
Bizim sevimlimiz Aida Gülzar.

***

Adı düşüb hər obaya, hər elə,
Şan-şöhrəti sığmır onun heç dilə.
Türk elləri aşiqidi əzəldən,
Xoş avazlı bizim aşıq Nargilə.

***

Elxan Məmmədli- saz sevdalıdı,
Yazıb yaradandı, elm-amalıdı.
Fəxr edir xalqımız onunla daim,
İnsanın ən saf, ən halalıdı.

***

Elm- ürfan sahibi Əli Şamildi,
Ədəb-ərkanını hamılar bildi.
Canından çox sevir Azərbaycanı,
Açıqürəklidi, həm şirindildi.

***

Kamandar bağının çiçəyi Ramin,
Elimin- obamın gərəyi Ramin.
Sazıyla-sözüylə olubdu çoxdan,
Bizim Borçalının ürəyi Ramin.

***

Aləmə bəllidi aşıq Həvəskar,
Kökdən-soydan gələn istedadı var.
O məşhur olubdu eldə-obada,
Hamı da onunla edir iftixar.

***

Lətifoğlu- bizim aşıq Kamandar,
Sazla-sözlə bağlayıbdı əjd-ilqar.
Ucaldıbdı Borçalının adını,
Tale olsun həmişəlik ona yar.

***

Göyün ay- ülkərisən,
Borçalı gövhərisən.
Kamandar Lətifoğlu,
Aşıqlar sərvətisən.

***

Qabil Faxralıdı, gözəl insandı,
Görkəmli aşıqdı, dildə dastandı.
Könülləri açıb, üzü güldürür,
Saz- söz meydanında bir qəhrəmandı.

***

Əziz balam, ay Vüsal,
Sənsən aqil-pürkamal.
Arzumdu bu həyatda,
Sən həmişə zəfər çal.

***

O şöhrət, həm şanımız,
Dar gündə həyanımız,
Bəllidi elm-urfanda,
Borçali Elxanımız.

***

Mərifətin kanısan,
Gözəllər sultanısan.
Validə, canım-gözüm,
Sən canımın canısan.

***

Hamılardan əzəldi,
Önümüzdə məşəldi.
Əziz Vüsal Abıyev,
Hər bir işin gözəldi.

***

Güllü bacım, mən yenə,
Alqış deyirəm sənə.
Ağıl, təbin, zövqünlə,
Gərəklisən vətənə.

Səringül Sadəyə ithaf olunan şeirlər

İLADİ ÖMƏROĞLU
(Bacım Səringül Sadəyə)

SƏRİNGÜLÜM

Aran-dağı, bağça-bağı,
Hər çiçəyi, buz bulağı,
Çəmən-çayır, buz bulağı
Şeirə saldı Səringülüm!

El eşqindən yanan zaman,
Başkeçidi anan zaman.
Çox eyləyib ahla-aman,
Fikrə daldı Səringülüm!

İladinin hər anında,
Oldu onun hey yanında.
Sazın-sözün meydanında,
Yer də aldı Səringülüm!

İladi Ömərоğlu

KƏNDİMİZƏ SALAM DE!

Sən Səringül Sadəsən,
İlham dolu badəsən.
Yaxşı tapdın vədə sən,
İndi kəndə gedirsən,
Vətəni yad edirsən.

Qucağında yatdığım,
Şeh-şəbnəmə batdığım.
Boya-başa çatdığım,
Kəndimizə salam de,
Məndən bir söz, kəlam de.

Qapanmışdı otağa,
Həsrət idi bulağa.
Artıq gedib yaylağa,
Al anamın könlünü,
Qulluq eylə hər günü.

Hamıdan ol xəbərdar,
Qonşuda gör kimlər var?
Yaxşıdırmı qohumlar?
Düşün keçmiş anları,
Bir-bir yoxla onları.

Bax bir Şindi çəndimi,
Bulud onla təndimi,
Seyr et doğma kəndimi,
Varmı qonaq-qarası,
O, ciyərim parası!

Heç keçirmə gün hədər,
Əyriqara sal nəzər.
Qar qalıbmı bir qədər?
Havasını al dağın,
Açılsın qaş-qabağın.

Buta bizim bacımız,
Başımızda tacımız.
Qoy yox olsun acımız,
Adı düşüb dillərə.
Ondan söylə ellərə.

Unut getsin dərd-səri,
Gəz, gəzdiyim yerləri.
Sənə açım sirləri,
Vətənimiz bir cənnət,
Heç görməsin dərd-möhnət.

İladidən dağ-daşa,
Yaxın dosta-sirdaşa,
Sənlə gedən yoldaşa,
Salam söylə dübarə,
Möhnətimə et çarə!

SƏRİNGÜL BACIM

Oxuyub şeirimi eyləmə heyrət,
Ey Səringül bacım, ondan al ibrət.
Qardaşın eyləyir sənə nəsihət,
Dağ başında belə, ləyaqətli ol.

Qoyma ortalıqda dolansın naşı,
Qurunun oduna yandırsın yaşı.
Kimi baş oynadır, kimi göz-qaşı,
İnsan tanımaqda çox diqqətli ol.

Həyat imtahandır hər addım başı,
Yoxsa pul-parası, nə də qaş-daşı,
Kiçiltmə heç zaman böyük qardaşı,
Çalış hər vaxt adil, ədalətli ol.

Yaxşı bil qədrini hər bir anın da,
Ehtiram, etibar var ki, canında.
Ağsaqqal, ağbirçək, ana yanında,
Dözümlü, təmkinli, itaətli ol.

Azca insaf-mürvət yoxdu fələkdə,
Hər zaman marağın olsun əməkdə.
Hərdən ilhamlanıb şeir deməkdə,
Bacın Buta kimi məharətli ol.

Sevib daş-torpağı, deyirəm yenə,
Dolan-gəz Vətəni sən dönə-dönə.
Əgər lazım gəlsə, keçərək önə,
O Nigar, Həcər tək şücaətli ol.

Get-gedə artsa da öz ağrım-acım,
Könül güldürməkdi yalnız amacım.
İladi razıdır səndən, ey bacım,
Həmişə beləcə sədaqətli ol!

AĞLAMA, BACIM, AĞLAMA

Fələyin çoxdu oyunu,
Yaxşının tutur toyunu.
Çoxu tanımır soyunu,
Ağlama, bacım, ağlama!

Bayquş bəyənmir bülbülü,
Qarğa sevməyir bir gülü.
Bəxtimiz olub mürgülü,
Ağlama, bacım, ağlama!

Kimə çevirdik kürəyi,
Dərdlə doldurdu ürəyi.
Allahdan gözlə köməyi,
Ağlama, bacım, ağlama!

Vaxt gələr, ağlar ağladan,
Adildi böyük Yaradan.
Biz də gülərik bir zaman,
Ağlama, bacım, ağlama!

İladi deyir bu sözü,
Var hər gecənin gündüzü.
Tanrıya tutginan üzü,
Ağlama bacım, ağlama!

BACIM

Dolanan dost sorağınnan,
Nəğmə qopan dodağınnan.
Xanım-xatın bulağınnan,
Doya-doya içən bacım.

Dərdi çəkən için-için,
Qürbət eldə keçirən gün.
Qardaş üçün, bacı üçün
Öz canından keçən bacım!

Sadə adlı qəlbi kövrək,
İladiyə verən ürək.
Halalları baxıb tək-tək,
Uzaqdanca seçən bacım!

RÜBAİ

Silsilə dağları aşsın ilhamın,
Ey Səringül bacım, hey yansın şamın.
Təbrik eyləyirəm doğum gününü,
Kölgəsi üstündə olsun Mövlamın!

GƏL!

Sadə bacım, sən yenə,
Gedirsən, get Vətənə.
Gül-çiçəkdən dər mənə,
Onu alıb gətir, gəl!

Bizim doğma diyardan,
Tanış-biliş, dost-yardan,
Etibardan-ilqardan,
Yaz bir neçə sətir, gəl!

Dəvət eylə Butanı,
Ağırlayın mehmanı.
Qoy görsünlər hər yanı,
İstəyimi bitir, gəl!

Xoş keçirsin hər günü,
Görün toyu-düyünü.
Pərvanəni, Güllünü
Gül içində itir, gəl!

Göstər Şindi dağını,
Gəzdir Atam bağını.
Onların o çağını,
İladiyə yetir, gəl!

BACIM

Dağdan yazıb dağlar çəkdin sinəmə,
Həsrətimiz bəlli oldu aləmə.
Daha bəsdi, batıb-çıxma dərd-qəmə,
Bizimdimi möhnət-ələm, ay bacım?!

Səringülüm, bu dünyanı gəz də gəz,
Bizim dağlar heç bir dağa bənzəməz.
Başkeçidə cənnətdə də yox əvəz,
O Şindiyə tapanmazsan tay, bacım.

Çən-dumansız, çılpaq dağa ar olsun,
Dağın gərək zirvəsində qar olsun.
Arzum budur, tale sənə yar olsun,
Yurd salasan bu dağlarda yay, bacım.

Biz görmüşük dağı çeşmə-bulaqlı,
Müsafirli, gəlib-gedən qonaqlı.
Orda dağlar qumlu, tozlu-torpaqlı,
Heç yazda da axıb getməz çay, bacım.

İladi də öz sözünü söyləyir,
Bunu yazıb bir xatirə əyləyir.
Fələk yenə bildiyini eyləyir,
Sən çox da ki, saydığını say, bacım!

MƏNİM BACIM SƏRİNGÜLDÜ

Mövlam verib bizə bacı,
Bacısızlar çəkər acı.
Bacıların qızıl tacı
Mənim bacım Səringüldü.

O bilirmiş əhvalımı,
Sevincimi, məlalımı.
Soruşan mənim halımı
Mənim bacım Səringüldü.

And içərmiş o, başıma,
Can verərmiş göz yaşıma.
Bənzəyən dost, sirdaşıma
Mənim bacım Səringüldü.

Əgər gəzsə İran-Turan,
Unutmazmış məni bir an.
Məni sevən, məni qanan,
Mənim bacım Səringüldü.

Kövrələndə könlüm alan,
Qürbət eldə yada salan,
İladiyə həmdəm olan
Mənim bacım Səringüldü.

DÜNYA

Bacım, dünya qalmaqaldı,
Ondan kamı de, kim aldı?!
İlan kimi bizi çaldı,
Qurtarmadıq heç dişindən.

Peydər vurdu aramızı,
Selə verdi Saramızı.
Hey qanatdı yaramızı,
Əl çəkmədi vərdişindən.

Bizi saldı daldan-dala,
Qoymadı ki, ümid qala.
Zəy-zəhrimar qatdı bala,
Utanmadı gərdişindən.

Nə ki, dərd var, cəm eylədi,
Bəxtimizi kəm eylədi.
Sevinc verib qəm eylədi,
Anlamadım bir işindən.

İladiyə tutdu toyu,
Qismət etdi hoydu-hoyu,
Baş açmadım ömrüm boyu,
Gəlişindən-gedişindən.

SƏRİNGÜL BACIM

Karvan çıxıb getdi, qaldın piyada,
Çəkdin cəfaları həddən ziyada.
Görmədim mən səni fani dünyada,
Kimsədən pay ummur Səringül bacım.

Sevdin Başkeçidi ürəkdən-candan,
Düşdün uzaqlara dağdan-arandan.
Ulu Borçalıdan, Azərbaycandan,
Vətən nədir qanan, Səringül bacım!

Qoymadın çətinlik çəksin övladın,
Nəvələrin oldu qolun-qanadın.
Gecələr yerində rahat yatmadın,
Görəndə bir nalan, Səringül bacım!

Həmişə and içdin qardaş başına,
Bacını bənzətdin üzük qaşına.
"Ana" sözü yazdın hey yaddaşına,
Atanı pir sanan Səringül bacım!

Yazdıqca dağlardan eşq-ilham aldın,
Sadə tək adını dillərə saldın.
İladi qeydinə hər zaman qaldın,
Dədə-baba anan, Səringül bacım!

SƏADƏT BUTA
(Bacım Səringül Sadəyə)

SƏRİNGÜL

Qardaşım da sənsən, bacım da sənsən,
Dərdimin ortağı, anam Səringül.
Bu müşkül halıma, qəmli könlümə
Ağlayıb ürəkdən yanan Səringül.

Yaxşılıq etməkdən heç vaxt doymadın,
Yamana da yaman günü qıymadın.
Şöhrətə aldanıb, vara qıymadın,
Səringül Sadəsən, sonam Səringül.

Yeddi yerə böldün öz çörəyini,
Tanrı bol eyləsin duz-çörəyini.
Göylərə endirib söz mələyini,
Telli sazdan ilham alan Səringül.

Yetimə ürəksən, yoxsula kömək,
Gözündə min arzu, dilində dilək.
Dəyməsin saçına bir acı külək,
Hamının qeydinə qalan Səringül.

Butanın başında Vətən havası,
Bağrında qövr edir Məmməd yarası.
Mənim bəy atamın altun qalası,
Ölüncə mən sənlə varam, Səringül!

AY SƏRİNGÜL

Sən ağlama, mən ağlaram,
Din-imanım, ay Səringül.
Körpəlikdən dərd ortağım,
Canda canım, ay Səringül.

Gəl bağrımı köz eyləmə,
Bir dərdimi yüz eyləmə.
Yaramı göz-göz eyləmə,
Kəsməz qanım, ay Səringül.

Çətin olar qürbət diyar,
Göylərdən dərd-azar yağar.
Vallah-billah tutmur qərar,
Anan xanım, ay Səringül.

İladim bal bacı deyib,
Bacıların tacı deyib.
Görməyəsən acı deyib,
Necə danım, ay Səringül?!

Butayam, dərd yol eylədi,
Abbas qəmi qul eylədi.
Bil, Elmiram kül eylədi,
Qoyma yanım, ay Səringül.

Nəbi Borçalı

BACIM

Səringül Sadədi mənalı adı,
Ustadı bəllidi – şair İladi.
Alıb qanad altda qohumu-yadı,
İmkanı qədəri saxlayan bacım.

Sinə sözlə dolu, saz həvəslidi,
Boranla işi yox, yaz həvəslidi.
Yazır şeirləri, söz həvəslidi,
Bizi bir-birimizə bağlayan bacım.

Qürbətdə yaşadı, bu qədər oldu,
Kimsəsi köç etdi, bixəbər oldu.
Namərdin əlindən dərdəcər oldu,
Zaman kösövünnən dağlanan bacım.

Ucalan bayraqdı ulduzlu-aylı,
Şuşa fəryadıdı haraylı-haylı.
Arazdı, dərdi var o tay-bu taylı,
Axıb arzularla çağlayan bacım.

Çəkək ortalığa haqqı-divanı,
Haqq özü tapdasın haqqı dananı.
Borçalı Nəbinin canı yananı,
Tayı-bərabəri olmayan bacım!

Teymur İsmayılov

ƏZİZ ANAM, SƏRİNGÜLÜM

Həm anasan, həm dost-yoldaş,
Oldun mənə sanki qardaş.
Sən vədəsiz ağartdın baş,
Əziz anam, Səringülüm.

Körpəlikdən etdim heyrət,
Qismət oldu sənə qürbət.
Ömrü boyu gördün zillət,
Əziz anam, Səringülüm.

Çox istədin qardaş-bacı,
Neyləsən də, gördün acı.
Ey göz nurum, başım tacı,
Əziz anam, Səringülüm.

Eylədinsə nəyi dilək,
Çatdırmadı zalım fələk.
Dərd-qəm verdi ətək-ətək,
Əziz anam, Səringülüm.

Üz tutsan da hansı yönə,
Səxavəti çəkdin önə.
Pay payladın dönə-dönə,
Əziz anam, Səringülüm.

İşin-gücün oldu çətin,
Sən böyütdün bizi mətin.
El içində var hörmətin,
Əziz anam, Səringülüm.

Bu Teymurun həyanısan,
Bil ki, onun qəlb-canısan.
İlhamlısan, söz kanısan,
Əziz anam, Səringülüm.

Faiq Məşədi

DAĞLARIN
(Xalam Səringül Sadəyə)

Bəxt-iqbalı dönüb tərsə,
Boşdu qucağı dağların.
Tufan qopub, sellər axıb,
Sönüb ocağı dağların.

Deyəcəyim bəd xəbərdi,
Fil də çəkməz belə dərdi.
Bal-qaymağı zəy-zəhərdi,
Yoxdu yığnağı dağların.

Örpəyi qara buludlu,
Həsrətdən gülü solubdu.
Sadəsiz gözü dolubdu,
Əsir dodağı dağların.

Gəl, ey xala, dayaq duraq,
Dərd-qəmini gedib soraq,
Sazlı-sözlü məclis quraq,
Olaq qonağı dağların.

Bulaqlardan içib gəldi,
Faiq Məşədi kövrəldi.
Elə bil ki, gövhər-ləldi.
Hər bir yaylağı dağların.

Elxan MƏMMƏDLİ

ÜZ TUT YENƏ DAĞLARA

(Səringül xanım xəstələnərək Marneulidə mülaicə olunarkən yazdım bu şeiri. Dağlar qızının aran yerində müalicə alması mənə başqa cür təsir etdi)

Dağlar qızı, dağda məlhəm yoxdumu,
Üz çevirib dağdan getdin hara, hey?!
Dağın şehi, tər gülləri, havası,
Etmədimi dərd-sərinə çarə, hey?!

Dağ Vətəndi, dağ obadı, dağ eldi,
Şah dağıdı, Lələvərdi, Çənlibeldi.
O sərhəddi, o sınırdı, təməldi,
Ağ günümüz onsuz keçər qara, hey!

Aran yerin baxçasında gül açmaz,
O yerlərdə xəstələr də sağalmaz.
Üz tut dağa, dağda insan qocalmaz,
Qayıt, bacım, dağlara dübara, hey!

04.11.2021

Sadaxlı Yetim Mahmud

AY SƏRİNGÜL

Borçalımda bir dənəsən,
Ay Səringül, ay Səringül.
Sən bir eşqi-pərvanəsən,
Ay Səringül, ay Səringül.

Vurğun oldum qələm-qaşa,
Mən yazığı tutma daşa.
Gəl rəhm eylə axan yaşa,
Ay Səringül, ay Səringül.

Kərəm kimi yandım oda,
Qıyma ömrün gedir bada.
Kirpiyin dönüb cəllada,
Ay Səringül, ay Səringül.

Nazi-qəmzən canlar alır,
Görənləri dərdə salır.
Hamı sənə heyran qalır,
Ay Səringül, ay Səringül.

Mən Yetimə var hörmətin,
Ürəkdolu məhəbbətin,
Yaddan çıxmaz səxavətin,
Ay Səringül, Ay Səringül!

Aşıq Solmaz Kosayeva

AY SƏRİNGÜL!

Dinlə məni, gözəl mələk,
Üzü gülər, qəlbi kövrək.
Solmaz kimi adı çiçək,
Dili lalsan, ay Səringül!

Nanəcibdən gen dolandın,
Müqəddəsdir Vətən andın.
Dərdlinin dərdinə yandın,
Əhli-halsan, ay Səringül!

Yetimlərin gərəyisən,
Yoxsulların köməyisən.
Sən Solmazın ürəyisən,
Düz ilqarsan, ay Səringül,
İyi ki, varsan, ay Səringül!

BAYATILAR

Pətəkdə balım bacı,
Qadanı alım, bacı.
Qardaşın xəbər alır,
Necədir halın, bacı?

Aydın oldu,
Ay doğdu, aydın oldu.
Sənnən xoş xəbər gəldi,
Gözlərim aydın oldu.

Dağlar qızı dağ gəzər,
Kef-damağı çağ gəzər.
Mənim bacı dediyim,
Hər vaxt üzü ağ gəzər.

Keçmədim, ada, sənnən,
İçmədim bada sənnən,
Arzumdur, gözəl bacım,
Rədd olsun qada sənnən.

Gül verim dəstə-dəstə,
Gülü qoy gülün üstə.
Başqa peşkəşim yoxdu,
Təki mənnən gül istə.

Saçları burma bacı,
Sözləri xurma bacı.
Üz tut dağlara sarı,
Aranda durma, bacı.

Yetişib bağımda nar,
Peşkəş edim, gəl apar.
Dosta hörmət, ehtiram,
Qocalsam da yenə var.

Hənifə Şəbnəm

RƏFİQƏM SƏRİNGÜL SADƏYƏ

Mənim kişi qeyrətli,
Qadın ləçəkli bacım.
Qardaş-bacı, anaya,
Dosta gərəkli bacım.

Çıxanda yoxsula pay,
Hələ yoxdu ona tay.
Dost qazanıb bir alay,
Böyük ürəkli bacım.

Anasına oğuldu,
Süfrəsində noğuldu.
Neçə başda ağıldı,
Gözəl diləkli bacım.

Özü yetimə ana,
Əl uzadır hər yana.
Ona qarşı çıxana,
Toplu-tüfəngli bacım.

Əli şair qələmli,
Dili dərin kəlamlı.
Süfrəsi xoş təamlı,
Çaylı-çörəkli bacım.

Səringüldü düz əlli,
İşi Şəbnəmə bəlli.
Payız barlı-bəhərli,
Bahar çiçəkli bacım.

Hüseyn Faxralı

SƏRİNGÜL

Elə bil ki, göydən çiçək ələnib,
Hər yan, hər yer ağ çiçəyə bələnib.
Ağ çobanyastığın təzə-tərindən,
Şehli-şehli, dəstə-dəstə dərin gül.

Yaşıl otlar itib-batıb arada,
Yalaq dərdi, sağalmadı yara da.
Yay ayları, dərdə dərman, çara da,
Yaylaq üstə səpələyin, sərin gül.

Sən qəmdən-qəhərdən uzaq, gen dolan,
Gen gəzib şəhərdən uzaq-gen dolan.
El içində şirin dili qənd olan,
Qəhqəhə çək, qəşş elə də, dərin gül.

Hörülübdü, hörük deyil, bəs nədi?!
Çiçək-çiçək nə çələngdi başında?
Dil-dodağım buz sulara təşnədi,
Sərin-sərin əsən mehə, Səringül!

BİBİM SƏRİNGÜL

Laylamı çalmısan mənə bələkdən,
Səni çox sevirəm, inan, ürəkdən.
Qanımsan, canımsan atam tərəfdən,
Mənim bibim qızı, bibim Səringül!

Nakam köçüb gedən Bəkir sonası,
İsmayıl nənəsi, Teymur anası.
Butanın bacısı, Xanım balası,
Mənim bibim qızı, bibim Səringül!

Balam da hər zaman səni çox andı,
Sadə mənəm deyir könül açandı.
Leylanı özünə bir övlad sandı,
Mənim bibim qızı, bibim Səringül!

Leyla Pərvin

Dərviş Osman Əhmədoğlu

BİR MARAL BOYLANIR ÜZÜ DAĞLARA

Ocaqmı qarsayıb, qaramı düşüb,
Yoxsa ürəyindən toramı düşüb,
Bəlkə arxasınca haramı düşüb,
Bir maral boylanır üzü dağlara.

Görən alışdımı, görən yandımı,
Bilmirəm əhdini yoxsa dandımı,
Yoxsa bu pərişan Natavandımı,
Bir maral boylanır üzü dağlara.

Təşnə dodaqları bulağa çatmır,
Nə səsi-sədası qulağa çatmır.
Əlləri o dağa, bu dağa çatmır,
Bir maral boylanır üzü dağlara.

Hanı Alıqara çala düdüyü,
Adlaya bələni, keçə gədiyi.
Axtaram könlümdə itən itiyi,
Bir maral boylanır üzü dağlara.

Hələ əllərində xınası qalıb,
Hələ Şamdüyədə binəsi qalıb.
Hələ bu dünyada dünyası qalıb,
Bir maral boylanır üzü dağlara.

Yağışmı yağacaq, hava qaralıb,
Şimşəkmi çaxacaq, bulud yarılıb.
Yoxsa o sazdakı telmi qırılıb,
Bir maral boylanır üzü dağlara.

Çiçəyi çırtdamır yamacın-yalın,
Şəhdi də süzülmür pətəkdə balın.
Məni dindirməyə bir hava çalın,
Bir maral boylanır üzü dağlara.

Mənim bu dağlarda nəyim qalıbdı,
Kamanım qalıbdı, neyim qalıbdı.
Bir az göynəməyə heyim qalıbdı,
Bir maral boylanır üzü dağlara.

Osman, bu dünyanın məzəsi getdi,
Köhnəsi köhnəldi, təzəsi getdi.
Yoxsa alnımızın yazısı getdi,
Bir maral boylanır üzü dağlara.

Sədi Yaradanqulu

SƏRİNGÜL SADƏ

Axıtsın sellər məni,
Aparsın yellər məni.
Atsın Şindi dağına,
Bürüsün güllər məni.

Əgər gəlsən dağlara,
Oxşayar yellər səni.
Aparmaz Sara kimi,
Heç qorxma sellər səni.

Yazda dağlar gül açar,
Göz oxşar, könül açar.
Sən qonaq gəlsən əgər,
Qollarını gen açar,
Qarşılar ellər səni.

Buludlar su çiləyər,
Başından şeh ələyər.
Çəmən qoynuna alıb,
Gül ətrinə bələyər,
Bürüyər güllər səni.

Bülbüllər cuşa gələr,
Könüllər xoşa gələr.
Sədi ilə Səringül
Dağlara qoşa gələr.

Görəndə süsən-sünbül,
Ötəndə şeyda bülbül.
Ətir saçar qızılgül,
Alqışlar dillər səni.

SƏRİNGÜLÜNDÜ
(Səringül xanım olan tabloya baxarkən)

Toplayıb ağ gülləri,
Taxıbdı telə Şindi.
Gül-çiçəkdən bir xalı,
Salıbdı yerə Şindi!

Dağların gen qoynu bir çəmənzardı,
Ətəyi gül-çiçək bir güllüzardı.
Dağların qoynundan geri boylandım,
Gördüm yaşıl düzlər bir laləzardı.

Kim doyar bu cənnətməkan diyardan,
Sevimli gözəldən, vəfalı yardan.
Eh, mənim gördüyüm bu yaz, bu bahar
Dağlardan, düzlərdən bir yadigardı.

Bağçadakı güllər şən bülbülündü,
Çəməndəki güllər sənin gülündür.
Gözləri oxşayan təbiət tablosu,
Güllərdən də gözəl Səringülündü.

Harun Koca

CAN ABLAMA SELAM GÖTÜR

Tapşırdım savax səhərə,
Can Ablama selam götür.
Bu şeherden o şehere,
Can Ablama selam götür.

Giden kervanlara gattım,
Axan dere, çaya attım.
Kuşun yaxasınnan tutdum,
Can Ablama selam götür.

Uzanan yollara dedim,
Yoldakı güllərə dedim.
Ayağa, ellere dedim,
Can Ablama selam götür.

Aradakı uca dağlar,
Gül bitirən bağça-bağlar.
Cavan, qoca, xasta, sağlar,
Can Ablama selam götür.

Aslan belinə yükledim,
Bülbül dilinə yükledim.
Filin dalına yükledim,
Can Ablama selam götür.

Uzaxdı menzili gördüm,
Gelennen gedennen sordum.
Esen yele yemin verdim,
Can Ablama selam götür.

Budur Harunun dileyi,
Dağların mehi, küleyi.
Yerin-göyün hak meleyi,
Can Ablama selam götür.

TƏBRİZ İMAN
(Dəyərli şairə Səringül Sadə xanıma həsr etdiyim şeirlər)

AY SƏRİNGÜl.

Gecələr sübhəcən yata bilmirəm,
Vermir ağrılarım son, ay Səringül.
Məsum baxışların isidir məni,
Açılır qəlbimdən don, ay Səringül.

Ruhu, həm vicdanı təzəsən, təzə,
Hörmətin, izzətin şərəfdir bizə.
Nurun təcəlladır saldğın izə,
Doğur yolun üstə gün, ay Səringül.

Təbriz hürkək olub bu qeylü- qaldan,
Sözə şirinlik qat qaymaqdan, baldan.
Yığılsın torpağın gözləri yoldan,
Nolar, qayıt yurda, dön, ay Səringül.

OLDUN

Səndən nigaranam,halın necədir,
Qız,olma dərdləri şəfasız oldun?
Əvvəllər deyərdin,gülərdin şövqlə,
Eşqinmi səngidi, havasız oldun?

Qismətə naşükür olarmı bəndə,
Yolumu azmışam dumanda, çəndə.
Dostluq ünvanını bulmuşdun məndə,
Yurddan perik düşdün,yuvasız oldun.

Sən məndən, mən səndən ilham alardıq,
Sözlərin sehrinə düşüb qalardıq.
Hər cür gözəlliyə mehman olardıq,
Nədən belə zövqü - səfasız oldun?

Xəstəyəm, saçımı darayanım yox,
Qəlbdə çox nisgilim var, həyanım yox.
Təkəm, Təkdən özgə arayanım yox,
Səndəmi Təbrizə vəfasız oldun?!!!

Sərxan Candarlı

AY SƏRİNGÜL

Söylə qərib eldə, qərib ölkədə,
Günün xoşmu keçir, xoş, ay Səringül?
Üzürmü həsrətdən Başkeçiddəki
O qaya, o çınqıl, daş, ay Səringül.

Dəysə də gözünə min dağ, min dərə,
Olmaz Şindi kimi gözəl mənzərə.
Bir vaxt çiçəyini dərdiyin yerə,
Gəlsə ağlın qalar çaş, ay Səringül.

Arılar uzaqdan nərgizi görür,
Yemlihli yamaca xalılar sərir.
Bu dağlar insana imtahan verir,
Şamdüyə hey alır beş, ay Səringül.

Desən inanmaram xoşdu qəriblik,
Ərdir, ərimir, daşdı qəriblik.
Candarlı, yadıma düşdü qəriblik,
Axdı gözlərimdən yaş, ay Səringül.

ASLAN ŞİRƏLİOĞLU

(Dəyərli şairə Səringül Sadə xanıma həsr etdiyim şeirlər)

SƏRİNGÜL

(Elmira Mahalqızının Səringül Sadəyə yazmış olduğu şeirə nəzirə...)

Göyə uçma, a məhəbbət dəlisi,
Geri qayıt:- sərin danış, sərin gül!
Könül dünyan bir sevdanın zəlisi,
O eşqi an:- dərin düşün, dərin gül!

O baxışla lal görüşdür baxışı,
Xəlvət yağsın intizarın yağışı.
Hənir tutsun təbəssümün naxışı,
O günlərə şirin boylan, şirin gül!

Sən bir cansan, ömrü bütöv yaşıyan,
Gülüşüylə dərd-sərini qaşıyan.
Həsrətini içindəcə daşıyan,
Qoy şeş düşsün xəyalında zərin, gül!

Gedən getdi... bir də gəlməz ta ələ,
Qaş qoyulmur parıldayan hər lələ.
Sevin qəlbən:- qəhqəhə çək, qəşş elə,
Şeh çiləsin gülüşünə tərin, gül!

Yurd salıbdır ürəyində yaz, sənin,
Varlığını bələyibdir naz, sənin.
Sinən üstə behişt tapıb saz, sənin,
Özün boyda od-alovsan, Səringül!

27. 07. 2022

GÖRÜRƏM Kİ...

(Könül dünyası həyat eşqiylə alışıb-yanan Səringül xanıma)

Hərdən seyr edirəm könül dünyanı:-
Açıbdır hər yanda gül görürəm ki...
Sınıb piltik-piltik eşqinin camı,
Olub arzuların kül görürəm ki...

Xüsusi zövq verib ona yaradan,
Seçir ustalıqla ağı qaradan.
Özünə yük tutub köhnə-paradan,
Yox onun evində ləl görürəm ki...

Axan göz yaşları qarışır selə,
Gününü keçirir dərd-sərlə elə.
Bəzənib süfrəsi halallıq ilə,
Açıbdır rəbbimə əl görürəm ki...

13.07.2022

SƏRİNGÜL SADƏYƏ...

Avazında çəmən-çiçək ətri var,
Qəlb dünyası min otaqlı Səringül!
Baxışında bənövşənin xətri var:-
Göz fikirli, qaş çataqlı, Səringül!

Gülüşlərin qaymaq tutub üzündə,
Təbəssümün çiçək açıb gözündə.
Könlün yanır məhəbbətin közündə,
Qəhqəhəsi qol-budaqlı Səringül!

Sanki, sinən zirvələrin qarıdır,
Yanaqların qönçə bağın narıdır.
Gözündə od:- məhəbbətin barıdır,
Gül ağızlı, bal dodaqlı, Səringül!

07. 08. 2022

RUHUMU

(Anam Səringül Sadənin Lahıc səfəriylə əlaqədar yazdığım şeir)

Yenə göylərdəsən, a dağlar qızı,
Gülüşün dağlara çəkdi ruhumu!
Şirin təbəssümün bəzədi yazı,
Gül edib yolunda əkdi ruhumu!

Gülür çil-çıraqla bəxtin ulduzu,
Vurmağa şərab var, kəsməyə quzu.
Qatıb quzqulağa bir çimdik duzu,
Xəyalım ovcunda ökdü ruhumu!

Fikrim qat-qarışıq... boylanıram lal,
İçimdə qımışan xatirələr kal.
Bir yanda düşüncəm, bir yanda xəyal,
İtmiş gəncliyimə çəkdi ruhumu!

Gülürsən şəkildən xoş əhvalla sən,
Üzündə gül açıb təbəssüm dən-dən.
Bulaq yarpız verir, dərə duman-çən,
Yaz çəmən-çiçəklə bükdü ruhumu!

Səringül, əl açma yaxına, yada,
Bir də tanımasın yaxanı qada.
Qayıdıb yerinə o ərk, o əda,
Köhnə xatirələr sökdü ruhumu!

29. 04. 2023

Elmira Mahalqızı

SƏRİNGÜL

İlhamıma qanad verdin gözündən,
Sərin bulaq,sərin çəmən sərin gül,
Xəyallarım pörrələnir sözündən,
Könlüm içrə kök atanda dərin gül.

Sən günəşsən al günəşin baxışı,
Qədəmlərin nəğmələrin yağışı...
Odlu sinən məhəbbətin naxışı,
Çiçəkləyir dodağında şirin gül...

Sən sevgisən bu amalı daşıyan,
Sən sehirsən qışı -yazı yaşıyan,
Sən ilhamsan şerimi oxşuyan,
Gözlərimdə cilvələnir yerin gül...

Şanə bağrım çat -çat olub yarılıb,
Sən gəlincə sən sarıdan darılıb..
Mahalqızı boynunaça sarılıb,
Vüsalıma sarmaşıq tək sarın gül..

SƏRİNGÜL

Danışanda dodağından bal yağır,
Bir sığalın məlhəm olur, Səringül.
Məhəbbətin ürəklərdə gül açır,
Ətri könlə gülşən olur, Səringül.

Mən nə deyim bu şöhrətli bacımdan,
Zəhmətindən, əməyindən, gücündən.
Bir xanımsan, xanımların içindən,
Hər görüşün çox şən olur, Səringül.

Yaxşılıqla ucaltmısan adını,
Hamı sevir sən zəhmətkeş qadını.
Bəzəmisən zəhmətinlə yurdunu,
Görən sənə həmdəm olur, Səringül.

Sən mələksən, hüsnün parlaq ay, gözəl,
Sərvətindi xalqdan gələn pay, gözəl.
Şeir desən səsin bulaq, çay, gözəl,
Gah zil olur, gah bəm olur, Səringül.

Sən bağlısan hər obaya, hər kəndə,
Gözəlləşir xalq sevgisi sinəndə.
Mahalqızı saf insanlar görəndə,
Yurd da ona Vətən olur, Səringül!

BƏNZƏTDİM

(Dəyərli ziyalı xanım xətrini canım qədər sevdiyim şairə bacım Səringül Sadəyə ithaf edirəm)

Mən elə sevdim ki səni,
Günəşə ,aya bənzətdim.
Allah eşqilə doğulan,
Şirin bir paya bənzətdim...

Göydən üzdün caxışını,
Könlə düzdün naxışını...
Gözdən süzdum baxışını,
Axarlı çaya bənzətdim.

Vurulmuşam telli saza,
Yetir məni bir muraza,
İstəyini güllü yaza,
Payıza, yaya bənzətdim..

Bağlanmışam Səringülə,
Söz oynaya,dərın gülə,
Onu cəməndə bülbülə,
Nazlı Hümaya bənzətdim...

Könül gördüm, yaşıllaşan,
Ləpələri aşıb daşan,
Məhəbbəti sədlər aşan,
Yeni dünyaya bənzətdim...

BRLİYANT ATƏŞ

(Dəyərli şairə Səringül Sadə xanıma həsr etdiyim şeirlər)

SƏRİNGÜL SADƏ XANIM

Başı göylərə dəyər,
Namərdi Haqqa əyər,
Sözün düzünü deyər,
Səringül Sadə xanım.

Səni gendən duyandı,
Canın fəda qoyandı,
Kimsəsizə həyandı,
Səringül Sadə xanım.

Şeir, sənət boxcalı,
Ələsgərdən axcalı,
Bayatıdan taxçalı,
Səringül Sadə xanım.

Səsi gələr hay olar,
Leysan olar, çay olar,
Haqdan bizə pay olar,
Səringül Sadə xanım.

Bu Atəşdi vurğunu,
Uçurmasın qurğunu,
Şeir, sənət yorğunu,
Səringül Sadə xanım.

13.01.2023.

BAYATI

Sən də əlli səkkiz, ay qız,bax, mən də,
Çaşmasın ruhumuz dumanda, çəndə,
Nə vaxt yola düşüb sizə gələndə-
Əla xəngəl bişir, yaxşı danış, gül,
Eyni ilin dəlisiyik, Səringül.

Allah qapını açsın,
Üzünə şəfəq saçsın,
Sən pəhləvan kimi gəz,
Atəş üstünə qaçsın.

***

Bajı, səsinə qurban,
Durna dəsinə qurban,
Məclisə tez gəlməyə
Gələn "həəəə" sinə qurban.

***

Sənsiz günlərim ağır,
Atəş olubdu fağır,
Sən gedəli, ay bajı,
Bu başıma od yağır.

***

Tez gəl, özünə qurban,
Söhbət, sözünə qurban,
Amandı, yerdə yatma,
Şax dur, dizinə qurban.

SALAM OLSUN GÜL SƏRİNGÜL BACIMA

Üzündən nur, dilindən dürr tökülən,
Kövrək qəlbi ilmə-ilmə sökülən,
Ürəyində haqdan saray tikilən-
Salam olsun gül Səringül bacıma.

Dindirəndə Ələsgəri dirildən,
Xana quran, ilmə vuran şeirdən,
Bayatıdan, gəraylıdan-hər yerdən,
Salam olsun gül Səringül bacıma.

Başı dərya-içi ləldi, qızıldı,
Ruhun uçdu hərdən qəlbə süzüldü,
İnsanlığı, həm də özü gözəldi,
Salam olsun gül Səringül bacıma.

Bal ləhçəsi məni məftun eylədi,
Ruhum sökdü şirin-şirin teylədi,
Vallah, Atəş varlığıyla söylədi,
Tanıyandan bir qaş bildim tacıma,
Salam olsun gül Səringül bacıma.

(2022

Aşıq Gülayət Abihəyat

AY SƏRİNGÜL

Kədər-möhnət sinəm üstdən,
Salıbdı yol, ay Səringül.
Vətən deməkdən bağrıma
Düşübdü xal, ay Səringül.

Gözlərimdə qurumur nəm,
Yediyim dərd, içdiyim qəm.
Gecə-gündüz mənə həmdəm,
Fikir-xəyal, ay Səringül.

Bəxtim yatmağa uyubdu,
Fələk nə günə qoyubdu.
Dilim-ağzım quruyubdu,
Olmuşam lal, ay Səringül.

Şeh saxlayır üstündə gül,
Gülayət heç unutmaz bil.
Selə dönən yaşımı sil,
Gəl bacım ol, ay Səringül!

Sehran Suleymanova

SƏRİNGÜL SADƏ XANIM

Elin mərd anasıdır,
Dərdlərə yanasıdır.
Tarixdə qalasıdır,
Səringül Sadə xanım.

Şeirin sözün qalası,
Dili dərdlər dəvası.
Türkün məğrur anası,
Səringül Sadə xanım.

İnsanlığın şahıdır,
Bayatı padişahıdır.
Borçalının mahıdır,
Səringül Sadə xanım.

Vətəninə bağlıdı,
Göyçə, qarabağlıdı.
Həm aranlı, dağlıdı,
Səringül Sadə xanım.

Ramilə Əliyeva

AY SƏRİNGÜL SADƏ XANIM

(Səringül Sadə xanıma sevgilərlə)

Ürək telini titrədər,
Heç bir sözün deməz hədər.
Olmasın ömründə kədər,
Ay Səringül Sadə xanım.

Sən şirinlik mələyisən,
Yıxıq evin dirəyisən.
"Nur ocağı"n gərəyisən,
Ay Səringül Sadə xanım.

Olmasın ömrünün qışı,
Sevinclə sən ötür yaşı.
Könüllərə sevgi daşı,
Ay Səringül Sadə xanım.

Çiçək açsın ömrün, yazın,
Əsirgəmə,işvə-nazın.
Gəlsin hər zaman avazın,
Ay Səringül Sadə xanım.

Azar-bezar olsun uzaq,
Söz söyləyək,şeir yazaq.
Bahar gəlsin,bitsin sazaq,
Ay Səringül Sadə xanım.

13.01.2023

Həvva Nazim

SƏRİNGÜL ANAYA

Hamımızın anası,
Həqiqətin aynası,
Borçalının sonası,
Səringül Sadə xanım.

Dilindən bal süzülər,
Kəlməsinə düzülər,
Unudarsaq, üzülər,
Səringül Sadə xanım.

Üz-gözündə gülüşü,
Toy-bayramdır gəlişi,
Yola verər hər işi,
Səringül Sadə xanım.

Güllü Eldar Tomarlı

AZƏRBAYCAN QADINI

(Xeyirxahlıq və səmimiyyət mücəsəmməsi,
şair bacım Səringül Sadəyə)

Yaxşı günün dostusan, yaman günün qardaşı,
Göstərmisən dostluqda möhkəm sədaqətini.
Anası mərd olan kəs heç əyməsin başını.
Dünya analarının ey qoçağı mətini,
Azərbaycan qadını!

Mirvarid Dilbazi

Qəlbi sevgi aynası,
İnsanlığın dünyası.
Anaların anası,
Azərbaycan qadını.

Tələtümlü dənizdi,
Çeşmə kimi təmizdi.
Dəyərlidi, əzizdi,
Azərbaycan qadını.

Odu vüsal bəstəsi,
Odu sevgi bəstəsi.
Odu həqiqət səsi,
Azərbaycan qadını.

Sehrli pir kimidi,
Açılmaz sir kimidi,
Ləl, gövhər, dür, kimidi,
Azərbaycan qadını.

Güllü deyər, nur dolu,
Varlığı qürur dolu.
Hər diləyi sur dolu,
Azərbaycan qadını.

Əflatun Hüseyinoğlu

BU SƏRİNGÜLƏ

"Hər şeyin təzəsi, dostun köhnəsi",
Sözü yaraşdırdım bu Səringülə.
Şirin söhbətindən doymaq olarmı?
İstərəm danışa bu, sərin gülə.

Qəmzəsi açsa da qəlbə yara şıq,
Hər kəs istər ola ona yar, aşiq.
Dağların şehi də olub yaraşıq,
Bu sərin çiçəyə, bu sərin gülə.

Üzdə təbəssümü şirin göstərir,
Leyliyə misaldı, Şirin göstərir.
Əflatun, ləbində şirin göstərir,
Onun gülüşüylə bu sərin gülə.

12.06.2020

Zaur Naqani Şirvani

SƏRİNGÜL SADƏ ANAYA

Söz tapmadım yaraşdırım şəninə,
Bir duvağsan naxışların, zərin, gül.
Söz bağını əkibdir Hak sinənə,
Bir dəryadır baxışların Səringül.

Bu ellərin, bu mahalın gülüsən,
Eşq, məhəbbət ağız açsa dili, sən,
Bal qoxulu şirin, şəkər dillisən,
Məlhəm olur axışların Səringül.

Geniş səbrin, geniş əqli kamalın,
Tər güllərə yaraşıqdır camalın,
Na'zan olur qaynasada cəlalın,
Enişlərin, yoxuşların Səringül.

Arzu Tahirqızı

SƏRİNGÜL ANA

Bir günəştək doğmusan,
Şeir, söz dünyasına.
Varlığınla dalmısan,
Bayatı dəryasına.
Gəzib diyarbədiyar,
Çətinlikdən keçmisən.
Saf duyğulu qəlbinlə,
Ürəklərə köçmüsən.
Xoş, təmiz niyyətinlə,
Üfüqdə parlayan Dan.
Çox sevgin, şəfqətinlə,
Gördüyüm şəfqətinlə,
Sənə qurbandır bu can.
İnsanlarla sevinib,
Dərdlərindən donmusan.
Bir yaralı bülbültək ,
Şah budağa qonmusan.
Sərvi boy, naz baxışlı,
Bir gül üzlü sonamsan.
Hamının sevimlisi,
Şən Səringül Anamsan.

Qulu Xaləddinoğlu

SƏRİNGÜL

Özün də sadəsən,adın da Sadə,
Adın insanlığa nazdı,Səringül.
Şəninə nə qədər xoş sözlər desək,
İnan ki,yenə də azdı Səringül.

Özün qazanmısan hörməti,düzdü,
Duyan ürəklərdə qoyduğun izdi,
Əzəldən sevgilin söhbətdi,sözdü,
Bir də çox sevdiyin sazdı, Səringül.

Nahaqdan bir qəlbi qıran,olsa da,
Dostlarla aranı vuran,olsa da,
Kimlərin könlündə boran, olsa da,
Hey sənin qəlbində yazdı,Səringül.

27.07.2022

CÜMŞÜD ƏLİ

(Dəyərli şairə bacım, ilham pərim adlandırdığım Səringül Sadə xanıma həsr etdiyim şeirlər)

GEDİR

Zəmanə bəd gəlir, ay ilham pərim,
İsmət əldən gedir, ar əldən gedir.
Yolunda canımı fəda etdiyim,
Gözəl əldən gedir, yar əldən gedir.

Uçulur,dağılır hörüb, tikdiyim,
Yerlə yeksan olur zülüm çəkdiyim,
Hərəsin bir yandan tapıb əkdiyim,
Ağac əldən gedir, bar əldən gedir.

Dəyişib zamanın səsi,avazı,
Qoca da,cavan da oynayır "cazı",
Çoxları bəyənmir, dinləmir sazı,
Kaman əldən gedir, tar əldən gedir.

Daha əvvəlki, tək sular axmayır,
İndiki, cavanlar sözə baxmayır,
Güvəndiyim dağa qar da yağmayır,
Zirvə əldən gedir, qar əldən gedir.

Cümşüdəm fikirlə beynimi yordum,
Ədalət axtarıb min xəyal qurdum,
Bir naşı ovçutək bərədə durdum,
Şikar əldən gedir, tor əldən gedir.

GÖRÜM

İlham pərim, getdi gənclik ömürdən,
Ha qovala, ha tilov at, tut görüm,
O atlıdır, biz qalmışıq piyada,
Arxasınca yüyür görüm,çat görüm.

Göz qaralır,qulaq ağır eşidir,
Ayaq getmir,sanki, öküz leşidir,
Ağrı-acı qocalığın işidir,
Əvvəlki tək şirin-şirin ,yat görüm.

Dizlər əsir ,sözə baxmır qıçımız,
Ağarıbdır saqqalımız,saçımız,
Ağıl gedib,həddən çoxdur suçumuz,
Bu səhvləri bir kənara,at görüm.

Sözümüzdə əvvəlki,tək kəsər yox,
Canımızda,qolumuzda təpər yox,
O şuxluqdan,təravətdən əsər yox,
Gənclikdəki,işvə-nazı sat görüm.

Cümşüd Əli nə deyirsə,düz deyir,
Deyilməmiş təzə fikir,söz deyir,
Qəm eyləmə,qocalığa döz deyir,
Həyat bizi çox eləyib mat,görüm.

14.04.2023.

İLHAM PƏRİM

Dünya yaxşılardan xali deyildir,
Yaxşı ki, varsınız,ay ilham pərim.
Vicdanda,əməldə, insanlığında,
Ağappaq qarsınız ay ilham pərim.

Arxasan,dayaqsan solum-sağımda,
Qartalsan,şahinsən uca dağımda,
Bu şeir dünyamda,sənət bağımda,
Ən gözəl barsınız,ay ilham pərim.

Günlərim keçsə də nə qədər acı,
Dərdimə məlhəmsiz, başımın tacı,
Aslana anasız,Cümşüdə bacı,
Rahimə yarsınız,ay ilham pərim.

İLHAM PƏRİM

Mən nə azam,nə də çoxam,
Rəvadırmı gedən baxam?
Sən olmasan, mən də yoxam,
Bacım mənim, ilham pərim.

Həkk olmusan yaddaşımda,
Çiçək açdı sərt qışım da..,
Bəla çəkən bu başımda,
Tacım mənim, ilham pərim.

Cümşüd Əli de nə etsin?
Bu ayrılıq, hicran bitsin,
Sağal ki, sən, çıxıb getsin,
Acım mənim, ilham pərim.

Yanvar 2023

MƏNBƏYİDİR

(Gözəl şairə bacım,dəyərli insan Səringül xanıma)

Dua etdim sağalasan,
Alqışlarım, mənbəyidir.
Gözüm axan çaya döndü,
Qırışlarım ,mənbəyidir.

Göz yaşımı silməz oldun,
Dərdimizi bölməz oldun ,
Axı niyə gəlməz oldun ,
Baxışlarım, mənbəyidir.

Tezcə sağal ilham pərim,
Sənsiz artır dərdim, sərim,
Sənsən mənim ümid yerim,
Çağrışlarım, mənbəyidir.

Yanvar 2023

SƏRİNGÜL SADƏ XANIM

Şeriyyatdır,qəzəllər,
Hər bir şeydən özəldir,
Bənövşədən gözəldir,
Səringül Sadə xanım.

Var həyası,isməti,
Saf,təmizdir niyyəti,
Söyləyir həqiqəti,
Səringül Sadə xanım.

Ocağımdı, pirimdi,
Qibləm,səcdə yerimdi,
Mənim ilham pirimdi,
Səringül Sadə xanım.

Kərbəlayı,Hacıdır,
Başımızın tacıdır,
Bizə doğma bacıdır,
Səringül Sadə xanım.

Mənim kimi "dəli"dir,
Haqqın vuran əlidir,
Borçalının gülüdür,
Səringül Sadə xanım.

Yol göstərən mayakdır,
Müqəddəslər sayaqdır,
Bizə arxa, dayaqdır,
Səringül Sadə xanım.

Ürəyi kainatdır,
"Pozitiv ",toy-büsatdır,
Bu Cümşüdə həyatdır,
Səringül Sadə xanım.

GÖZƏL ŞAİRƏ BACIM SƏRİNGÜL SADƏ XANIM

Başdan-başa söz, şeirdir,
Kəlmələri inci-dürrdür,
Şeir, sənət dünyamızda
And yerimiz ocaq, pirdir.

Misraları elə düzür,
Məlhəm kimi qəlbə süzür,
Dəstə-dəstə əldə gəzir,
Çiçək təki təzə-tərdir.

Cilalayır sözümüzü,
Ağ eləyir üzümüzü,
Qamaşdırır gözümüzü,
Cümşüd deyir qızıl, zərdir.

Aprel 2023

SABAHINIZ XEYİRLİ OLSUN

Ay mənə qol-qanad,ay ilham pərim.
Görüm,sabahınız xeyirli olsun.
Sənət baxçasından sizə gülləri,
Dərim,sabahınız xeyirli olsun.

Bu elə bağdır ki, nəhəngdən-nəhəng,
Bu bağda çiçəklər açıb rəngbərəng,
Güllərdən,çiçəkdən bir gözəl çələng,
Hörüm,sabahınız xeyirli olsun.

Güllər bürüyübdü dörd bir yanımı,
Coşdurur damarda qaynar qanımı,
İstəsən ay bacım, əziz canımı,
Verim,sabahınız xeyirli olsun.

İLHAM PƏRİMƏ

Eşq mənbəyin yaman günə qalıbdır,
Neçə vaxtdır harda idin, bilmədim.
Sən gedəndən hicran mənə yar oldu,
Bircə kərə sevinmədim,gülmədim.

Həsrət,kədər,azar aldı üstümü,
Qaldırdı ağrılar ərşə tüstümü,
Az qalmışdı məzar üstə büstümü,
Qoyardılar ancaq sənsiz ölmədim.

Yaxşı ki, qayıtdın, ay ilham pərim,
Cümşüdəm,sən oldun ocaq, pir yerim,
Mənim bəxt ulduzum,sönməz ülkərim,
Səni ürəyimdən bir an silmədim.

ƏYLƏN-ƏYLƏN

(Dəyərli şairə bacım Səringül Sadə xanımın eyni adlı şeirinə nəzirə)

Könlümü odlara yaxıb gedən qız,
Gəl Allah eşqinə bir, əylən-əylən.
Təzə çiçəklənmiş ömür bağımın,
Qapısı açıqdır gir,əylən-əylən.

Göstər cəmalını, qaldır şalını,
Görüm al yanaqda qoşa xalını,
Şeirdən hördüyün xalça, xalını,
Sinəmin üstünə sər, əylən-əylən.

Biçarə Cümşüdü tullama oda,
Pünhan sirrimizi verməyək yada,
Açılsa eşqimiz gedəcək bada,
Qalsın aramızda sirr, əylən-əylən.

GÖZƏL ŞAİRƏ BACIM

Acılı-şirinli fani dünyada,
Ümid yerlərimin birisən, biri.
Qovursan dərdləri şeirlərinlə,
Şeir dünyamızın pirisən,piri.

Hələ yazılmamış qanun kimisən,
Sənətə vurğunsan,məcnun kimisən,
Cəvahir,mirvari, altun kimisən,
Söz xəzinəsinin dürrüsən, dürrü.

Sənət gülşənində gülsən,çiçəksən,
Cümşüdə dar gündə arxa,köməksən,
Xasiyyətdə sanki, huri-mələksən,
Göydən enib gəlmiş pərisən,pəri.

GETDİ

(Dəyərli şairə bacım Səringül Sadə xanımla məktublaşma)

Dedik;az olacaq ömrü pis günün,
Acı bağırsaqtək uzandı,getdi.
Ciblərin doldurdu dərman satanlar,
Bir yandan həkimlər qazandı,getdi.
Cümşüd Əli

Dedim ki, dərdimə bir dərman yazar,
Dərdimi dərdlərə yazdırdı getdi.
Dayandım dili lal,qulaqları kar,
Xəyal səmalarda azdırdı, getdi.
Səringül Sadə

Dərdlərim böyükdür tapılmaz dərman,
Nə təbib baş açır,nə də ki, loğman,
Bəlkə kömək edə müqəddəs Quran,
Çarəsi bir surə azandı,getdi.
Cümşüd Əli

Qanlı fələk qəmə qonaq eylədi,
Sinəmi min yerdən varaq eylədi,
Ruhumu şimşəyə çıraq eylədi,
Məni bu dünyadan bezdirdi,getdi.
Səringül Sadə

Şükür etməliyəm gələn sabaha,
Bəxtdən gileylənib batdım günaha,
Cümşüdəm əlacım qalıb Allaha,
Hamının qismətin yazandı,getdi.
Cümşüd Əli

Sadəyəm dolandım,gəzdim cahanı,
Xudam özü yazdı,verdi fərmanı,
Dedi zülümkara vermə amanı,
Yaxşılıq yolunu düzdürdü,getdi.
Səringül Sadə

08.01.2023

DƏYƏRLİ ŞAİRƏ BACIM SƏRİNGÜL SADƏ XANIMA

İçindəki dünyaya,
Quzu kəsim, qoç kəsim.
O sirli dünyanızı,
Seyr etməyə tələsim.
Bilirəm ki, o aləm,
Bakirədir,təmizdir.
Mənim üçün hər şeydən,
Müqəddəsdir, əzizdir.
O dünyada tapılmaz,
Kin-küdurət, ədavət.
Orda ancaq yurd salıb,
Xoş diləklər, məhəbbət.
O dünya başdan-başa,
Xeyirxahlıq yuvası.
Orda hər zaman gedir,
Xeyrin, şərlə davası.
Bir ilahi nurdur ki,
Yoxdur zülmət, qaranlıq.
Gözəlliklə doludur,
Olmaz fitnə,yamanlıq.
Necə ona gül deyim?
Gül,çiçəkdən gözəldir.

Hər yanı, hər guşəsi,
Bayatıdır,qəzəldir.
İçindəki dünyaya,
Özümü qurban kəsim.
Mənim də o dünyadan,
Kaşki, gələydi səsim.

07.01.2023

BAYATILAR

Haqqın "dəlisi"mənəm,
Dostun səlisi mənəm,
Agah olun Cümşüdün
İlham pərisi mənəm.
Səringül Sadə

Dərdimdi, həm sərimdi,
Ocağımdı, pirimdi,
Mənə şeir yazdıran
Mənim ilham pərimdi.
Cümşüd Əli

Ocağının külüyəm,
Bağ-bağçanın gülüyəm,
Allahın şirin payı
Aşiqlərin piriyəm.
Səringül Sadə

Əziziyəm güldəsən,
Bir sevinib gül də sən.
Bu gülşəndə,bu bağda
Bülbül mənəm, gül də,sən.
Cümşüd Əli

Güldəsən
Çəmən də sən, gül də sən.
Durub niyə baxırsan?
Ağlayana gül de sən.
Səringül Sadə

Sözlərdən qanad taxar,
Məni yandırıb, yaxar.
İlham pərim gələndə
Təbim bulaqtək axar.
Cümşüd Əli

Qonaq, qonağı neylər,
Aşıq bulağı neylər.
Baxsa yarın gözünə
Lampa,çırağı neylər.
Səringül Sadə

Qələm, varağım sənsən,
Sözdə yarağım sənsən.
Neyləyirəm çırağı
Mənim çırağım sənsən.
Cümşüd Əli

Bağçalar barı Cümşüd,
Dağların qarı Cümşüd.
Sadə haqdan diləyir
Yarınla yarı Cümşüd.
Səringül Sadə

Yaramı sarımışam,
Bəxtimdən yarımışam.
Balamın anasıyla
Mən qoşa qarımışam.
Cümşüd Əli

Bağçanın barı Cümşüd,
Dağların qarı Cümşüd.
Yaman təbə gəlmişdin
Qoymadı qarı Cümşüd.
Səringül Sadə

Ağılımsan,sərimsən,
Ocağımsan,pirimsən.
Min dənə qarı gələ
Yenə İlham pərimsən.
Cümşüd Əli

Süzülərəm bal ollam,
Bağında nübar ollam.
Eşq oduna yanaram
Mən aləmə car ollam.
Səringül Sadə

Aşiqlər möhkəm olar,
Məşuqa həmdəm olar.
Mən açmaram heç kimə
Sirrimiz pünhan qalar.
Cümşüd Əli

Hüseyn Faxralı

SAZLI-SÖZLÜ GÖZƏLLƏRƏ MİN ƏHSƏN

Ay Səringül, Aytəkinə de ki, sən,
Şair deyir sənətkara min əhsən.
Sinəsində saz gözəldi, söz gözəl,
Sazlı-sözlü gözəllərə min əhsən!

Bulaq tək sinəsi qaynayan, coşan,
O dağlara şeir yazan, söz qoşan.
Sazı çalan, söz oxuyan, oynayan,
Sazlı-sözlü gözəllərə min əhsən!

Ah çəkməkdən saçlarına dən düşən,
Oba-oymaq, o dağlardan gen düşən.
Nə olar, beşcə bənd mənnən deyəsən,
Sazlı-sözlü gözəllərə min əhsən!

And verirəm səni Allah, Qurana,
Apar xəyalımı dağa, arana.
Sal yolumu tufan, çovğun, borana,
Sazlı-sözlü gözəllərə min əhsən!

Aytəkin huridi, sən də mələksən,
Aytəkin tərlandı, sən də tüləksən.
Aytəkin üsyankar, sən də ürəksən,
Mizrab tutan barmaqlara min əhsən!

Faxralı Hüseynəm, bunu biləsən,
Yanıqlı-yanıqlı sazda elə sən.
Ay Aytəkin, çək mizrabı telə sən,
Sazlı-sözlü gözəllərə min əhsən!

Zakir Süleymanov
polkovnik

DAYIM QIZI, AY SƏRİNGÜL

Sən Butadan ilham aldın,
Şeir yazıb yadda qaldın.
Özünə bir cığır saldın,
Dayım qızı, ay Səringül!

Gün keçirdin qürbət eldə,
Çox bayatın gəzir dildə.
Natəvansan, qələm əldə,
Dayım qızı, ay Səringül!

Zakir şeir vurğunudu,
Sazın-sözün cünunudu.
Yazıb-yarat, arzum budu,
Dayım qızı, ay Səringül!

SALEH HƏZRƏT HÜSEYNOV

(Dəyərli şairə Səringül Sadə xanıma həsr etdiyim şeirlər)

YAŞA XANIM YÜZ İL YAŞA

Həm anasan, həm də şair,
Yazıb-yarat, xalqa dair.
Qələminlə olub mahir,
İlham alıb, coşa-coşa,
Yaşa, xanım yüz il yaşa.

Qəmər qaşlı, qara telli,
Ay camallı, incə belli.
Şirin sözlü, şirin dilli,
Kəlağayı örtüb başa,
Yaşa, xanım yüz il yaşa.

Azərbaycan torpağının,
Cənnət məkan, Qarabağın,
Yağılara vermə yamın,
Qoyma əğyar, həddin aşa,
Yaşa, xanım yüz il yaşa.

SƏRİNGÜLDÜR SƏNİN ADIN

Qayğıkeşli mehribansan,
Xalqın üçün, fədakarsan.
Yorulmadan çalışırsan,
Səs salıbdır el-obaya,
Şan-şöhrətin , adın sənin.

Qürbətdə də yaşamı san,
Pillə-pillə, ucalmısan.
Köməksizə, bir dayaqsan,
Dözə bilməz, saf ürəyin,
Tanrıdandır, əməllərin.

Başda olan, kəlağayın,
Təcəssümü böyük xalqın.
Yadigarı Nətavanın,
Mərdanəlik xislətidir,
Üzündəki cizgilərin.

Bir tərəfdə Buta xanım,
Bir tərəfdə, Güllü xanım.
Tükənməzdir, arzuların.
Gələcəyə, xəyalların.
Səringüldür vədin-andın,
Səringüldür sənin adın.

Nübar Veys qızı

BACIM SADƏ

Sudan duru, aydan arı,
Ey yurdumun iftixarı.
Sən keçdiyin o yolları,
Mən də keçdim, bacım Sadə.

El-obada aldın ad-san,
Kim dilləndi, dedin "hə, can".
Sən içdiyin buz bulaqdan,
Mən də içdim, bacım Sadə.

Nübar hər vaxt söyləyir sən,
Vaxtsız saldın saçlara dən.
Bir dost-həmdəm, özümə mən,
Səni seçdim, bacım Sadə!

Hacı Xəlil İlməzli

SƏRİNGÜL SADƏ

Uğurlu qədəmin mübarək olsun,
Sözdə-sənətdə də pərvazlaş, bacım.
Coşqun ürəyinlə, şirin sözünlə,
Ucalıb, yüksəlib zirvə aş, bacım.

Gözün aydın, şair, alim anası,
Bu qızıl zəncirin qızıl həlqəsi.
Zər qələmli ey Səringül Sadəsi,
Coşqun bulaq kimi aşıb-daş, bacım.

Başda günəş olsun, yolların işıq,
Aydınlıqda yaşa, görmə dolaşıq.
Alimli, şairli neçə qardaşıq,
Xəlil də olubdu bir qardaş, bacım.

Yaqub Abbasov

BAYATILAR

(Səringül İsmayılova. Əhsən atanıza!
Təkcə adınız bayatıdır!)

Eyvan önü narın gül,
Becərəni Səringül.
Xarı yaxına qoyma,
Yetişincə yarın, gül.

Olan qopan varın gül,
Adın incə, Səringül.
Yaxın qoyma, xar düşə,
Yarpağına sənin gül.

Ziba Hüseynova

BAYATILAR

Səringül, ay Səringül,
Əsir sərin-sərin gül.
Sevincin tükənməsin,
Olmasın dərd-sərin, gül.

Əziziyəm, sarı gül,
Sarı çiçək, sarı gül.
Bülbülə kəc baxmasın,
Bəyənməsin sarı gül.

Əziziyəm, bağ olsun,
Ömrün bağça-bağ olsun.
Gəzəsən eşq bağında,
Kef-damağın çağ olsun.

Qərib-qərib oxuma,
Qəmdən çələng toxuma.
Yoxdu elə bir gecəm,
Gəlməyəsən yuxuma.

Qızılqələm

SƏRİNGÜL

Bir gün yolum düşdü el baxçasına,
Gördüm açıb yarpaq içrə sərin gül.
Şeh döşənib çiçəklərin üstünə,
Sərin hava yaradıbdı Səringül.

Ellər bilir el baxçası elindi,
Gələcəkdir görüşünə el indi.
Ay Səringül, bu el sənin elindi,
Atan-anan ad seçibdir Səringül.

Səringül ayağına sərin gül,
Sən bir dağsan, yamacın gül Səringül,
Qızılqələm isti danış, sərin gül,
Sərin güldü, sərin gülü Səringül.

Ay Səringül, gözəl insan ay bacı,
Səringülsən, sərin gül sən, Səringül.
İstilik gətirdin el baxçasına,
Ayağın gül, sərin güldü, sərin gül.

Gül içrə gir başdan-başa sərin gül,
Sərin gülə gülə-gülə sərin gül.
Səringülün qədəminə sərin gül,
Sərin-sərin sərin gülə Səringül.

Güllər ara ətir paylar sərin gül,
Ətir paylar sərin gülə sərin gül.
Qızılqələm sərin gülə sərin gül,
Səringüldü sərin güllü Səringül.

Süleyman Sultan Səncər
İRAK, KƏRKÛK

ŞİRİNDİL BACIM

Qamətin şux,õzûn gõzəl, dil şirin,
Süzülür sinədən, balın, şəkərin,
Gõylərə ucalsın şanin, şərəfin.
Ay mənim şìrindil, Səringül bacım!

Öz dilinlə qazanmısan, hõrməti,
Ürəyində, olan saf məhəbbəti,
De! Hardan almisan, sən bu cürəti.
Ay mənim şirindil, Sərìngül bacım!

Dost bilir, õzûnə,səni Sûleyman,
Səni xõşbəxt etsin bõyûk Yaradan,
Dayağında dursun mûqəddəs Quran!
Ay mənim şirindil, Səringül bacım!

Süleyman Sultan Səncər

AY SƏRİNGÜL

Ay Səringül, ədəb-ərkan bilənsən,
Ağladan yox, gözdən yaşı silənsən,
Xoş rəftarsan, danışansan, gülənsən,
Qəlbi dərya, sözü axar çay xanım.

Yaradan da, yaşadan da Allahdı,
Haq danışan, özü haqqa dayaqdı,
Dünya fani, insan onda qonaqdı,
Budur bizə göydən gələn pay xanım!

El içində alnımız ağ, üzmüz ağ,
Sinəmizə çəkilməsin, birdə dağ,
Yağılardan təmizləndi Qarabağ,
Ol göylərdə ulduz xanım, ay xanım!

Süleymanam, şöhrət -şana uymayan,
Mərdi, sevən namərdə yol qoymayan,
Çiçəyə dön, ətri-özü solmayan,
Yerdə gəzmə mələklərə tay xanım!

İçindəkilər:

Atam Ömər müəllim 3
Mən dədəmin qızıyam 4
Dədəm oğlanları..... 5
Atam balası 6
Ana..... 7
Anam belə söylərdi..... 8
Niyəsini sən xəbər al..... 9
Ağlayaq 10
Neyləyim..... 11
Anamız 12
Anam 13
Ay ana..... 14
Xanım ana 15
İncitməyin anaları 16
Xanım anam..... 17
Xanım ana 18
Qardaşım..... 19
Bacım Butaya 20
Ay mənim Buta bacım..... 21
Qardaş 22
Qardaş 23
Qardaşım..... 24
Qardaşım Nəbi 25
Ağlaram..... 26
Göylərə ucaldi hey ahım-ünüm 27
Qardaş 28
Elmar qardaş..... 29
Gülnarım 30
Bacım Gülnar..... 31
Teymurum 32
Sənsən, ay oğul..... 33
Teymur balam 35

Afaq qızım 36
İsmayıl 37
Ayrın balam 38
Nəvəm İsmayıl 39
Aysel 41
Asif 42
Elnarə 43
Sevimli qızım 44
Fidanım 45
Gözəl Fidanım 46
Turanım 47
Türkan 48
Qardaş, aldım salamını 49
Al qardaş əleykisalam 50
Yılmazoğlu aşıq yüksəl 51
Xınalı mamam 52
Dağların 53
A Məmmədim 54
Olduq 55
Dünya 56
Qardaş-bacı 57
Bacılarım 58
Bacı qardaşından üstündü-üstün! 59
Balalarıma nəsihət 60
Bacı 62
Nənə 63
Kəndim 64
Manya müəllimə 65
Namaz müəllim 66
Dayım balası 67
Dayım oğlu 68
Dayoğlu 69
Dayım oğlu 70
Mənim Tofiq dayım oğlu 71

Dayım oğlu 72
Ayaz ana 73
Ayaz 74
Valehə 75
Mamoğlu 76
Atəşin 77
Mirvarid 78
Mirvarid 79
Güllü bacım 80
Əhməd müəllim 81
Hacı Səlim bəy 82
Yunus qağamız 83
Bizim Könül köşkümüzün 84
Ayrıldım cah-calalımdan 85
Narın qayası 87
Ay Məmməd 88
Bizim Qəzənfər 89
Zərifə 90
Bəylər əmi 91
Əmimoğlu bayramdı, bil 92
Bacım 94
Ay Pərvanə 95
Rəhimə 96
Brilyant xanıma 97
Sehran xanım 97
Münəvvər xanım 98
Aşıq Tərmeyxan 98
Asifə 99

SƏRİNGÜL SADƏYƏ İTHAF OLUNAN ŞEIRLƏR

İLADİ ÖMƏROĞLU

Səringülüm 104
Kəndimizə salam de! 105
Səringül bacım 107

Ağlama, bacım, ağlama ... *109*
Bacım ... *110*
Rübai ... *110*
Gəl! ... *111*
Bacim ... *112*
Mənim bacım Səringüldü ... *113*
Dünya ... *114*
Səringül bacım ... *115*
SƏADƏT BUTA
Səringül ... *116*
Ay Səringül ... *117*
NƏBİ BORÇALI
Bacım ... *118*
TEYMUR İSMAYILOV
Əziz anam, Səringülüm ... *119*
FAİQ MƏŞƏDİ
Dağların ... *121*
ELXAN MƏMMƏDLİ
Üz tut yenə dağlara ... *122*
SADAXLI YETİM MAHMUD
Ay Səringül ... *123*
AŞIQ SOLMAZ KOSAYEVA
Ay Səringül! ... *124*
Bayatılar ... *125*
HƏNİFƏ ŞƏBNƏM
Rəfiqəm Səringül Sadəyə ... *127*
HÜSEYN FAXRALI
Səringül ... *129*
Bibim Səringül ... *130*
DƏRVİŞ OSMAN ƏHMƏDOĞLU
Bir Maral boylanır üzü dağlara ... *131*
SƏDİ YARADANQULU
Səringül Sadə ... *133*
Səringülündü ... *135*

HARUN KOCA
Can ablama selam götür *136*
TƏBRİZ İMAN
Ay Səringül *138*
Oldun *139*
SƏRXAN CANDARLI
Ay Səringül *140*
ASLAN ŞİRƏLİOĞLU
Səringül *141*
Görürəm ki *143*
Səringül Sadəyə... ..... *144*
Ruhumu *145*
ELMİRA MAHALQIZI
Səringül *146*
Səringül *147*
Bənzətdim *148*
BRLİYANT ATƏŞ
Səringül Sadə xanım *149*
Bayatı *150*
Salam olsun gül Səringül bacıma *151*
AŞIQ GÜLAYƏT ABIHƏYAT
Ay Səringül *152*
SEHRAN SULEYMANOVA
Səringül Sadə xanım *153*
RAMİLƏ ƏLİYEVA
Ay Səringül Sadə xanım *154*
HƏVVA NAZİM
Səringül Anaya *155*
GÜLLÜ ELDAR TOMARLI
Azərbaycan qadını *156*
ƏFLATUN HÜSEYINOĞLU
Bu Səringülə *158*
ZAUR NAQANİ ŞİRVANI
Səringül Sadə Anaya *159*

ARZU TAHİRQIZI
Səringül ana ... 160
QULU XALƏDDINOĞLU
Səringül ... 161
CÜMŞÜD ƏLİ
Gedir ... 162
Görüm ... 163
İlham Pərim ... 164
İlham Pərim ... 165
Mənbəyidir ... 166
Səringül Sadə xanım ... 167
Gözəl şairə bacım Səringül Sadə xanım ... 169
Sabahınız xeyirli olsun ... 170
İlham Pərimə ... 171
Əylən-əylən ... 172
Gözəl şairə bacım ... 173
Getdi ... 174
Dəyərli şairə bacım Səringül Sadə xanıma ... 176
Bayatılar ... 178
HÜSEYN FAXRALI
Sazlı-sözlü gözəllərə min əhsən ... 181
ZAKIR SÜLEYMANOV
Dayım qızı, ay Səringül ... 183
SALEH HƏZRƏT HÜSEYNOV
Yaşa xanım yüz il yaşa ... 184
Səringüldür sənin adın ... 185
NÜBAR VEYS QIZI
Bacım sadə ... 186
HACI XƏLİL İLMƏZLİ
Səringül Sadə ... 187
YAQUB ABBASOV
Bayatılar ... 188
ZİBA HÜSEYNOVA
Bayatılar ... 189

QIZILQƏLƏM
Səringül *190*
SÜLEYMAN SULTAN SƏNCƏR
Şirindil bacım *192*
SÜLEYMAN SULTAN SƏNCƏR
Ay Səringül *193*

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 02.08.2023
Şərti çap vərəqi 12,5. Sifariş № 302
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4